www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 avqust 2019-cu il Çərşənbə axşamı № 163 (7333) Qiymәti 60 qəpik

**Xəbər**

**Paytaxtda "özümü öldürəcəm" dəbi - psixoloqlardan ilginc xəbərdarlıq**

yazısı səh.10-da

# PAŞİNYAN MƏXFİ SƏNƏD AÇIQLADI: ERMƏNİSTAN DƏRİN BATAQLIQDA...

Düşmən ölkə apardığı işğalçı siyasətin altında qalıb; baş nazirdən ilginc etiraf; Bakının, Brüsselin və Vaşinqtonun ismarışları indi İrəvana çatır...




yazısı səh.8-də

**Gündəm**

## Bakıda güclü külək- ağaclar qırıldı,işıqlar kəsildi, xəsarət alanlar var...



Avqust ayı üçün xarakterik olmayan bu cür anomaliyanın səbəbi nədir?

yazısı səh.13-də

## Prezidentin sosial siyasəti və uğurun sirri

yazısı səh.3-də

## Kipr klubu 17 legionerlə "Qarabağ"a qarşı

yazısı səh.15-də

## İsgəndər Həmidov ağır xəstədir

yazısı səh.5-də

## Hacı Qalibin adı yenə mülk qalmaqalında-təfərrüat

yazısı səh.4-də

## Bakıətrafı qəsəbələrin marşrut bəlası-yeni qiymət, köhnə avtobus...

yazısı səh.14-də

## Rusiyada "şənbə inqilabları" - Kreml çətin durumda

yazısı səh.5-də

## Qarabağ üçün "B planı": Rusiya "dobro" versə...

yazısı səh.11-də

## Maliyyə amnistiyası yenidən gündəmdə

yazısı səh.12-də

## Ekspertlərdən "Azərbaycanda arvadlar ərlərini niyə döyür" sualına reaksiya

yazısı səh.4-də

## Adı Quranda olan bal arısı...

yazısı səh.13-də

## Ticarət mərkəzindəki yanğınların iki mühüm səbəbi

Sahə üzrə mütəxəssislər bildirirlər ki, sahibkarlar naqilləri düz seçmir və elektrik xətlərini çəkdirən zaman xəsislik edirlər

yazısı səh.7-də



Əli Əhmədov

## YAP funksioneri müxalifəti üsyana çağırışda suçladı

yazısı səh.6-da



Elman Rüstəmov

## Əhali yenə kreditlə yüklənir-baş bankirin xəbərdarlığı

yazısı səh.12-də



*Elçin Mirzəbəyli:*

## "Əli Kərimlini AXCP-nin klaviaturasının lideri kimi təqdim etmək olar"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019



## Naxçıvana əlavə reyslər açılır

**Qurban bayramında sərnişlərin sıxlığını nəzərə alaraq Naxçıvana əlavə təyyarə reysləri açılacaq. Bunu jurnalistlərə açıqlamasında AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski deyib.**

Qurum rəsmisi bildirib ki, yay mövsümü ilə əlaqədar olaraq Naxçıvana əlavə reyslər həyata keçirilir: "Tələbat artıq olduğu üçün reyslərin sayını artırırıq. Həmişə olduğu kimi, bu il də Qurban bayramı ilə bağlı əlavə reyslər açılacaq.

Ümumiyyətlə, bu mövsüm turistlərin sayı çox oldu. AZAL və Heydər Əliyev Beynəlxalq Hava limanı olaraq gücləndirilmiş iş rejimində işləyirik".

Qeyd edək ki, avqustun 12-13-də Azərbaycanda Qurban bayramı qeyd olunacaq.

## Müsavatçı məhkəmə zalından azadlığa buraxılıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz dövriyyəsində ittiham olunan Musavat Partiyasının üzvü Azad Həsənovun cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Prosesdə dövlət ittihamçısı çıxış edərək Azad Həsənovun 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

A.Həsənov məhkəmədə son söz söyləyib. O, ona elan olunan ittihamla özünü təqsirli bilməyib və məhkəmədən barəsində bəraət hökmü çıxarılmasını istəyib.

Prosesdə hökm oxunub. Hökmə əsasən, Azad Həsənov barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq edilib və ona şərti cəza təyin edilib, məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, A. Həsənov ötən il oktyabrın 11-də həbs olunub. Ona Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə ittiham irəli sürülüb.

## Bakıda "avtoş"luq edən II qrup əlil saxlanıldı

**Binəqədi Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları rayon ərazisində avtoxuliqanlıq edərək ictimai-asayişi nümayişkəranə şəkildə pozan və bununla da vətəndaşların haqlı narazılığına səbəb olan sürücünü saxlayıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ağdam rayon sakini Əliyev Loğman Ramiz oğlu 99 SP 502 dövlət qeydiyyat nişanlı "İnfiniti FX 35" markalı avtomobillə hərəkətdə olan zaman yol polisləri tərəfindən ona saxla işarəsi verilib. Amma sürücü nəqliyyat vasitəsini saxlamayaraq hərəkətini davam etdirib. Bu zaman sürücü avtoxuliqanlıq hərəkətləri edərək ictimai qaydanı və əhalinin dincliyini pozaraq dəfələrlə yol hərəkəti qaydalarını kobud şəkildə pozub.Sürücü saxlanılan zaman məlum olub ki, o, avtomobili idarə etmək hüququ olmadan sükan arxasına keçib. Sürücü barəsində Dövlət Yol Polisi Şöbəsində inzibati protokol tərtib edilib və toplanmış materiallar Binəqədi Rayon Məhkəməsinə təqdim edilib.

Məhkəmənin qərarına əsasən Loğman Əliyev İnzibati Xətalar Məcəlləsinin 511.1 (avtoxuliqanlıq) və 332.2 (Nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə) maddələrinə görə 1 il nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum olunub və 500 manat məbləğində cərimə edilib.

Qeyd edək ki, avtoxuliqanlıq edən L.Əliyevin ikinci qrup əlil olduğu və etdiyi hərəkətdən səmimi peşmanlıq hissi keçirdiyi nəzərə alınaraq barəsində məhkəmə tərəfindən inzibati qaydada həbs qərarı çıxarılmayıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Deputatlar Xətainin heykəlindən danışdılar

**Fəzail Ağamalı:** "Xətainin heykəlini ziyarət etmək, önünə əklil qoymaq problemə çevrilib"

**Fərəc Quliyev:** "Heykəl yaxşı yerdə qoyulmayıbsa..."

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın görkəmli dövlət xadimi Şah İsmayıl Xətai ilə bağlı dediklərindən sonra günlərdir davam edən müzakirələr ən müxtəlif istiqamətlərə yönəlir.**



İki il öncə ovaxtkı Bakı şəhər rəhbəri Hacıbala Abutalıbovun göstərişi ilə paytaxtın Xətai rayonunda, Yusif Səfərov küçəsindəki təmir işlərindən sonra dövlət xadiminin heykəli iki yolun arasında qaldı. Belə ki, abidəyə yaxınlaşmaq üçün heç bir şərait yoxdur. Yolu keçərək tarixi şəxsiyyətin abidəsini ziyarət etmək qayda pozuntusu hesab edilir. İndiyə qədər dəfələrlə bu məsələ gündəmə gətirilsə də, problem öz həllini tapmayıb.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a problemlə bağlı bunları dedi:** "Bakının böyük bir şəhəri, metrosu Xətainin adını daşıyır, adına küçə var. Onun adı daimi olaraq əbədiləşdirilib. Paytaxtımızda heykəli də qoyulub. Bunlar çox müsbət hallardır. Amma Yusif Səfərov küçəsində aparılan yenidənqurma işlərindən sonra Şah İsmayıl Xətainin heykəlini ziyarət etmək, önünə əklil qoymaq doğrudan da bir problemə çevrilib. Mənə elə gəlir ki, Bakı Şəhər İcra Hakimiyyəti və digər müvafiq qurumlar bununla bağlı düşünərək, problemin aradan qaldırılması üçün iradələrini ortaya qoymalı, konkret addımlar atmalıdırlar".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev:** "Mən Xətaini müdafiə etmirəm. Çünki onun müdafiəyə ehtiyacı yoxdur. Sadəcə, açıq şəkildə görünən budur ki, Azərbaycan dövlətinin tarixinə baxışlar fərqlidir. Hətta primitiv şəkildə, savadsızcasına məsələyə bəzən elə yanaşırlar ki, Azərbaycan dövlətinin tarixinin 1918-ci ildən başlandığını ən yüksək tribunalardan ifadə edirlər. Bunlar çox yanlış hallardır. Söhbət Bütöv Azərbaycandan gedir. Xətai böyük bir imperiya qurub, Azərbaycan dövlətçiliyini oturuşdurmuş bir şəxsdir, birləşdirici bir adamdır. İndi gəlib ələ bir kiçik yerə dayanıblar ki, az qala desinlər ki, Xətai "QAİ" işçisidir, gəlib yol-hərəkət qaydalarını təmin eləsin. Heykəl yaxşı yerdə qoyulmayıbsa, tələb olunar ki, başqa bir yerdə qoyulsun, adına meydanlar verilsin. Yaxşı oldu ki, bu polemikaları açdınız. Əvvəllər Azərbaycanın dövlətçilik tarixindən çox az sayda yazılar olurdu. Hesab edirəm ki, heykəl məsələsinin indiki şəraitdə bu şəkildə qabardılması deyilmiş fikirlərə, yanlışlıqlara bəraət qazandırmaq üçün bir bəhanədir. Açığı, heç kəsin üzərinə getməyin tərəfdarı deyiləm. Bəziləri savadsızlıqdan, cahillikdən, başqalarının təsiri altında olduqlarından bu məsələyə əl qoydular. Amma cəmiyyətin sərt təpkisini gördülər. Azərbaycan türkü öz tarixinə sahib çıxmağı hər zaman bacarır. Xətai və digər tarixi şəxsiyyətlərimizin adlarına meydanlar, heykəllər olmalıdır. Bu başqa məsələdir".

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## İntizam Komissiyasından deputatların mübahisəsinə reaksiya

**Son günlər deputat Fazil Mustafa sosial şəbəkələrdə tarixi şəxsiyyət Şah İsmayıl Xətai ilə bağlı yazdığı statuslarla yenidən gündəmə gəlib. Millət vəkili son statusunda "Şah İsmayıl Xətai" ordeninin ləğvini tələb edib və onun bu istəyi bir çox narazılıqlara səbəb olub.**

Fazil Mustafanın Şah İsmayıl Xətai barəsində səsləndirdiyi fikirlər təkcə kənar insanlar tərəfindən deyil, deputat həmkarları tərəfindən də narazılıqla qarşılanıb.

Milli Məclisin deputatı Fəzail Ağamalının həmkarı Fazil Mustafaya etirazına cavab olaraq qarşı tərəf onu "cahil" adlandırıb.

Fəzail Ağamalı isə Fazil Mustafaya cavab olaraq "Sənin qaragüruhun bataqlığından çıxarılıb, normal həyata, sivil siyasi müstəviyə gətirilməyində böyük əmək sərf edəni cahil adlandırırsansa, məntiqlə bəs onda sən kimsən?" deyib.

Milli Məclisin deputatlarının bir-birinə savaş açması parlamentin İntizam Komissiyası tərəfindən araşdırılmalıdırmı? Deputatlara töhmət verilməsi mümkündürmü?

**Milli Məclisin İntizam Komissiyasının sədri Ağacan Abıyev Modern.az-a açıqlamasında bildirib ki, hazırda parlament tətildə olduğundan məsələnin araşdırılması mümkün deyil:**

"Deputatlar arasında yaranan polemika ilə bağlı ətraflı məlumatım yoxdur. İkincisi də, Fazil Mustafa ilə Fəzail Ağamalı arasında baş verən söz savaşı Milli Məclisin iclasları zamanı baş verməyib. Milli Məclisdən kənarda baş verən hadisələrə İntizam Komissiyası nəzarət etmir".

**Komissiya sədrinin sözlərinə görə, bu cür məsələlərdə asayişə nəzarət edən polis var:**

"Polis, məhkəmə sistemi baş verən hər hansı hadisəyə nəzarət edir. Tutaq ki, bir şagird dərsdən kənarda qaydaları pozub, kiminləsə dalaşıb. Bu zaman məktəb direktoru cavabdeh olmalıdır?! Hesab edirəm ki, məsələlərə daha obyektiv yanaşmaq lazımdır".



## Azərbaycan Premyer Liqasının yeni püşkatması keçirildi

**Azərbaycan Premyer Liqasında 2019/2020 mövsümünün püşkatma mərasimi keçirilib.**

AFFA-nın inzibati binasında təşkil olunan tədbirdə ilk turun cütlükləri müəyyənləşib.

Ötən mövsüm olduğu kimi, çempionat eyni komandaların iştirakı ilə keçiriləcək. Bunlar "Qarabağ", "Neftçi", "Səbail", "Qəbələ", "Zirə", "Sumqayıt", "Sabah" və "Keşlə"dir.

I tur
"Neftçi" - "Sabah"
"Səbail" - "Zirə"
"Qəbələ" - "Sumqayıt"
"Keşlə" - "Qarabağ"

Qeyd edək ki, yeni mövsümün oyunları avqustun 16-18-də keçiriləcək. Qarşılaşmaların dəqiq tarixi açıqlanacaq.

## Türkmənbaşı xalq qarşısına atla çıxdı

**Türkmənistan prezidenti Qurbanqulı Berdiməhəmmədov aradan on gündən də çox keçəndən sonra ilk dəfə dövlət televiziyasında göründü. Türkmən televiziyasının "Vatan" proqramı xəbər verib ki, Berdiməhəmmədov məzuniyyəti zamanı aktiv istirahətlə məşğul olur.**



"Azatlık" radiosu isə xəbər verib ki, axşam efirində Türkmənistan liderinin velosiped sürdüyü, at belində gəzdiyi və avtomatik silahdan atəş açdığı barədə reportaj nümayiş olunub.

Bundan əlavə, dövlət televiziyasının məlumatına görə, Berdiməhəmmədov idman avtomobilinin sükanı arxasında Karakum səhrasından keçərək əhali arasında "Cəhənnəm qapıları" adı ilə daha yaxşı tanınan yanan qaz krateri Darvaza qədər uzun bir məsafə qət edib...

## Azərbaycanlı jurnalistə Rusiyada yüksək vəzifə verildi

**Rusiyada jurnalist kimi fəaliyyət göstərən həmyerlimiz Şəhriyar İmanbəyli media sahəsində yüksək vəzifəyə təyin edilib. Gənc jurnalist Rusiyanın "Vostok" Media Holdinqinin vitse-prezidenti seçilib. O, həmçinin həmin media holdinqin tərkibindəki "Vostok" telekanalının icraçı direktoru vəzifəsini yerinə yetirəcək.**

Bakupost xəbər verir ki, Şəhriyar İmanbəyli təyinatla bağlı Modern.az-a açıqlamasında bunları deyib: ""Vostok" Media Holdinqə vitse-prezident təyin edildim. Eyni zamanda həmin holdinqə aid və 2 milyondan çox abunəçi izləyicisi olan "Vostok" telekanalının icraçı direktoru vəzifəsini yerinə yetirəcəyəm. Mənə bu etimadı göstərdiyi üçün "Vostok" Media Holdinqin sahibi və prezidenti Valeri İlişayevə dərin təşəkkürümü bildirirəm".

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# Prezidentin sosial siyasəti və uğurun sirri

## Ötən il verilən vədlər, bir ildə görülən işlər

**Hələ ötən ilin ikinci yarısında prezident İlham Əliyev bəyan etmişdi ki, növbəti dövr Azərbaycanda sosial sahədə ciddi islahatlarla yadda qalacaq. Bunu o, həyata keçirilmiş iqtisadi siyasət və islahatlar nəticəsində ölkə gəlirlərinin sürətlə artması, iqtisadiyyat, infrastruktur sahələrində nəzərdə tutulan böyük layihələrin başa çatması nəticəsində artan gəlirlərin əhalinin sosial rifahını daha yüksəltmək istiqamətinə yönəldilməsinə imkan verməsi ilə əsaslandırıb.**



### İki sosial paket: 4,2 milyondan yuxarı insan və 5,2 milyard manat

2019-cu ilin əvvəlindən başlayaraq prezident iki böyük sosial islahat paketi təsdiq edib. Birinci paket 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılması, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manatın yönəldilməsini nəzərdə tutmaqla tam icra olunub.

Sentyabrın 1-dən başlanacaq ikinci paketin icrası ilə bağlı hazırlıq işləri tamamlanıb, həmin tarixdən minimal əmək haqqının 250 manata çatdırılması, əlavə olaraq 400 min nəfərin maaşının 20-50 faiz artırılması, 750 min pensiyaçıya verilən vəsaitin oktyabrın 1-dən yüksəldilməsi nəzərdə tutulub.

Verilən rəsmi məlumatlara görə, hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat, ümumilikdə 4,2 milyon vətəndaşın əhatə edilməsini və 5,2 milyard manatın sərf olunmasını nəzərdə tutur.

Sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Azərbaycan prezidentinin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanda minimal pensiya 72 faiz artırıldıqdan sonra ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimal əmək haqqının 250 manata çatdırılmasından sonra isə Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən artıq tələbəni, ümumilikdə 1,3 milyon nəfər insanı əhatə edib. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə bu kateqoriyaya aid olan insanların sosial durumunun xeyli yaxşılaşdırılmasını təmin edəcək.

Azərbaycan prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin etmişdir. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanır. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. Bu siyasətin davamı olaraq il ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də əhatə olunacaq.

Azərbaycan prezidenti bununla da qənaətlənməyərək özünüməşğulluq proqramı üzrə görülən işlərin sürətləndirilməsini tələb edib. Ötən il bu proqram 6 min ailəni əhatə edib, bu il isə əlavə vəsaitlərin cəlb olunması nəticəsində 10 min ailənin əhatə olunması nəzərdə tutulub. İlin əvvəlindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə artıq 45 min müraciət daxil olub, 4 min nəfər təlim keçib, 1100 nəfər aktiv əldə edib.

Özünüməşğulluq proqramı beynəlxalq təşkilatlar tərəfindən də müsbət qiymətləndirilib. Belə ki, bu ildən BMT-nin İnkişaf Proqramı layihəyə daxil olub, 1000 nəfərə yaxın ailə məhz BMT-nin İnkişaf Proqramı tərəfindən təmin ediləcək.

Bundan əlavə, prezidentin tapşırığı ilə proqram barədə Dünya Bankı da məlumatlandırılıb. Proqramı yüksək qiymətləndirən Dünya Bankı ilə müzakirələr yekun mərhələyə çatıb. Sentyabr ayında Dünya Bankı layihə təklifini Azərbaycan Hökumətinə təqdim edəcək və gələn ildən bu qurum da layihəyə qoşulacaq.

Bununla yanaşı, birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST mərkəzlərinə 20 min müraciət daxil olub, vətəndaşların məmnunluğu səviyyəsi 93 faizə yüksəlib. Bu gün DOST mərkəzləri artıq 126 növ xidmət təklif edir. Bu il daha bir, gələn il isə 3 mərkəzin açılması nəticəsində Bakı əhalisinin 80 faizi DOST xidmətləri ilə əhatə olunacaq.

### Əsas prioritet: sosial sahə

**Nazirlər Kabinetinin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxışında prezident bildirib ki, ilin əvvəlində qarşıya qoyulan vəzifələr icra edilir:** "Ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur. Ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir. İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, "SOCAR-Polymer" zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır".

**Prezident vurğulayıb ki, ticarət dövriyyəmiz də kifayət qədər artıb - 20 faizdən çox:** "Qeyri-neft ixracımız 15 faiz artmışdır. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artmışdır. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artmışdır, yəni, plandan əlavə yığılmışdır və bu da aparılan islahatların təzahürüdür".

**İ.Əliyev bir daha vurğulayıb ki, sosial sahə hökumət üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub:** "Bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir".

**Azərbaycanda inşaat sektorunun canlandırılması istiqamətində addımlar atılır. Hazırda Bakı şəhərində bir neçə yüz yaşayış binasının tikintisi gedir:** "Bu, inşaat materialları sektoruna da müsbət təsir göstərir, iş yerlərinin açılması üçün şərait yaradır. Onu da bildirməliyəm ki, ilin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır. Biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə ödənişli ictimai iş yerlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb və təxminən 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıbdır".

**Prezident eyni zamanda qeyd edib ki, dövlət öz üzərinə düşən öhdəlikləri vaxtında və keyfiyyətlə icra etdiyi kimi, özəl sektor da iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir:** "Buna görə bu iş yerləri açılır ki, vətəndaşlar işlə təmin olunsunlar. Ancaq hamımız yaxşı bilməliyik ki, özəl sektor iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir. Özəl sektorun nümayəndələri ilə aparılan işlər nəticəsində biz bu sahədə də artım görürük. İqtisadi canlanma, əlbəttə ki, iş yerlərinin yaradılmasına da gətirib çıxarır. Çünki bu, daimi proses olmalıdır".

**Ölkə prezidenti əhalinin gəlirlərinə mənfi təsir edən süni qiymət artımı məsələsinə də toxunub:** "Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar. Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə ki, biz süni qiymət artımına yol verə bilmərik. Çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu sahə daim diqqət mərkəzində olmalıdır".

Göründüyü kimi, prezident İ.Əliyev yalnız əhalinin gəlirlərinin artması, sosial cəhətdən müdafiəsinin gücləndirilməsi deyil, həm də əldə olunan gəlirlərin möhtəkirlərin yeminə çevrilməməsi kimi vacib məsələləri də diqqətdə saxlayır.

Bütün bunlar Azərbaycan prezidentinin əhalinin rifahının yüksəlməsi məsələsini prioritet sahə kimi diqqətdə saxladığını, artıq bu istiqamət üzrə çox böyük işlər görüldüyünü və qarşıdan gələn illərdə də bu tendensiyanın qorunub saxlanacağını bir daha təsdiq edir.

**❑ İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# Ekspertlərdən "Azərbaycanda arvadlar ərlərini niyə döyür" sualına reaksiya

## Fərqanə Mehmanqızı: "Qadının ərini döyməsi daxili aqressiyanın partlamasıdır"
## Mehriban Zeynalova: "Ötən il qadın ərinin maşınının şüşələrini sındırmışdı"

**"Əslində düşünürdüm ki, nə əcəb media bu məsələyə toxunmur. Çünki qadının kişiyə şiddəti az rast gəlinən hadisədir. Qadının ərini döyməsini artıq daxili aqressiyanın partlaması kimi qiymətləndirə bilərik".**

Bu fikirləri "Yeni Müsavat"a psixoloq Fərqanə Mehmanqızı ötən həftə Abşeron rayonu, Hökməli qəsəbəsində qadının öz ərini döyməsi haqda danışarkən açıqladı. Xanım psixoloq hesab edir ki, ailədaxili şiddət həmişə olur: "Sadəcə, bu gün sosial şəbəkə şərait yaradır ki, tez məlumatlanırıq. Qadınların kişilərə fiziki və psixoloji şiddəti müqayisədə azdır. Amma qadınlar kişilərə həmişə psixoloji təzyiq edirlər. Çünki xanımlar emosional olurlar, ona görə psixoloji təzyiq göstərirlər".

**F.Mehmanqızı düşünür ki, qadınların aqressivliyinin səbəbkarı da yenə kişilərdir:** "Evdə xanımı bu həddə kişi çatdırır. Qadın zərifdir, fiziki gücü o qədər deyil ki, ərini döyə bilsin. Amma kişinin davranışları onu fiziki addım atmağa məcbur edir, hansısa əşyanı onun üstünə atır, vurur. Çox əfsuslar olsun ki, Azərbaycan qadını bu gün bu cür xəbərlərlə də tanınır".

**Psixoloq sosial şəbəkə müstəvisində kişi-qadın mübahisələri olduğunu da vurğuladı:** "Daxili aqressiya partlayıb və özünü hərtərəfli büruzə verir, boşanmalar artır".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirdi ki, kişilərin zorakılığa məruz qalması ilə bağlı müraciətlər nadir hallarda olur:** "Biz qadınlara yardım edirik, onlara sığınacaq veririk. Amma bu gün (dünən - E.S.) bir nəfər zəng eləmişdi, sığınacaq istəyirdi. Səbəbini bilmədim, amma biz kişilərə sığınacaq vermirik. Ötən il isə bir qadın ərinin maşınının şüşələrini sındırmışdı. Sadəcə, o kişinin hərəkətlərində də manipulyasiya var idi. Biz insanlarla ünsiyyətdən bilirik ki, kim sui-istifadə edir, kim zorakılığa məruz qalıb... Görünür, qadını o həddə çatdırıb ki, maşının şüşəsini qırıb.


Fərqanə Mehmanqızı


Mehriban Zeynalova

Bir sıra hallarda alkoqoldan asılı kişilərin qadını tərəfindən təzyiqə məruz qalması faktları qeydə alınır. Bu da ondan irəli gəlir ki, kişi özünü idarə edə bilmir. Hökməlidəki hadisə də manipulyasiya ola bilər".

**M.Zeynalovanın sözlərinə görə, məsələ kişi və ya qadının zorakılıqla üzləşməsində deyil, qanun qarşısında qorxmaqdadır:** "Qadın polisə şikayət edir, uşaqlar da ifadələrində ananın sözlərini təkrarlayırlar. Kişi artıq cəzalanmağın qorxusundan tabe olur. Lakin bəzi hallarda qadınlar kişini zorakılığa vadar edir".

**Hüquq müdafiəçisi qadın zorakılığını üç cür təsnifatlaşdırıb:** "Bir var qadın zorakılıq olmayan mühitdən zorakı mühitə düşür, o zaman qurbana çevrilir.

Bir var zorakılıq mühitindən qeyri-zorakı mühitə düşür, bu zaman onun bədəni təzyiqə öyrəşib, bir növ normadır. Yəni ata, qardaş evdə onu döyüb alçaldır. Zorakılıq mühitindən zorakılığa düşənlər daha ağır vəziyyətlə üzləşir. Onlar ağır depressiya keçirir, xəstəlik tapır. Yeni davranış modelləri fərqli olur".

Qeyd edək ki, sözügedən hadisə Hökməli qəsəbəsi, Koroğlu küçəsində qeydə alınıb. 1990-cı il təvəllüdlü Kiçikbəyov Rüfət Hacıbala oğlu ailə münaqişəsi zəminində həyat yoldaşı tərəfindən döyülüb.

O, ailə üzvləri tərəfindən xəstəxanaya gətirilib. Həkimlər xəstəni aidiyyəti üzrə müayinəyə götürüb və xəsarət alan şəxsə qapalı kəllə-beyin travması diaqnozu qoyublar.

Yeri gəlmişkən, Azərbaycanda qadınların hüquqlarının müdafiəsi ilə bağlı 50-dən çox təşkilat var. Amma kişilərin hüquqlarının qorunması ilə bağlı bir quruma rast gəlməmişik. Psixoloqlar isə hesab edirlər ki, dünyada, həmçinin bizim ölkəmizdə də fiziki olmasa da, mənəvi zorakılığa məruz qalan kifayət qədər kişi var.

Xüsusilə müsəlman ölkələrində yaşayan kişilərin bununla bağlı nəinki psixoloqa, hətta dostlarına belə danışması mümkünsüzdür. Çünki bu cür kişilər cəmiyyətin qınağından qorxurlar. Amma bu o demək deyil ki, kişilər zorakılığa məruz qalmır. Bəlkə də intihar edənlər arasında kişilərin sayının daha çox olması bununla bağlıdır.

Psixoloqların fikrincə, qadın və kişi zorakılığının baş verməsi ailə üzvləri arasındakı anlaşılmazlıq, kişi və qadının qarşı-qarşıya oturub söhbət edə bilməməsi, yaxud ümumiyyətlə, xarakterlərinin tutmaması, qısqanclıq və s. ilə bağlıdır.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Hacı Qalibin adı yenə mülk qalmaqalında - təfərrüat

## Sabiq deputat vətəndaşın özəl torpağını avtodayanacağa çevirib

**"Hacı Qalib hələ deputat olanda 3 mərtəbəli və 2 mərtəbəli iki mülkümü yerlə bir edib, ərazini özü üçün avtodayanacağa çevirib. Avqustun 4-də Bilgəhdə oldum, gördüm ki, mənim torpağımda düzəltdiyi avtodayacaqda maşınların sayı itib. Birindən 3 manat, o birindən 5 manat alıb əraziyə buraxır, pul qazanırlar. Mən isə özəl torpağıma gedə bilmirəm" - şikayətçi Seymir Quliyev belə deyir.**

Qeyd edir ki, hüquq-mühafizə orqanları sabiq deputat Hacı Qalib Salahzadəni onun əmlakına qəsd etdiyinə görə istintaqa çağırırlar, amma nəticə ortaya çıxmır: "İllərdir ki, polis, məhkəmə, prokurorluq, icra hakimiyyətlərinin qapılarındayam. Əlimdə Hacı Qalib tərəfindən qəsb olunan özəl torpağıma, dağıdılan mülklərimə aid dövlətin verdiyi sənədlər var. Hacı Qalibi istintaqa çağırırlar, hansı qisimdə dindirirlər, bunu bilmirəm. Şahiddir, təqsirləndirilən şəxsdir bilinmir. Mənə deyirlər ki, istintaq gedir. Hacı Qalib də istintaqın getdiyi vaxtda mənim qəsb olunan torpağımdan pul qazanmağındadır. Mənim mülkiyyət hüququm pozulub, mənə qarşı cinayət baş verib".





2018-ci ilin oktyabrında Baş Prokurorluq eks-deputat Qalib Salahzadənin qanunsuz olaraq bağladığı yolun açılması üçün Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova məktub ünvanlayıb.

Məktubda Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Aslan Salahzadə küçəsi döngə 21, ev 2, ev 1 ünvanlarına və dəniz çimərliyinə gedən yolun açılmasının təmin edilməsindən bəhs olunur. Məktubun yazılmasına səbəb Bilgəh qəsəbə sakinləri Seymur Quliyev, Nurid Əliyev və 35 vətəndaşın imzası ilə Baş Prokurorluğa ünvanladıqları müraciətdir. Müraciətdə deyilir ki, sabiq deputat Qalib Salahzadə yolu kəsərək dəmir darvaza qoydurub və şlaqbaum quraşdırıb. Yola maneələr qoyub. Vətəndaşlar xahiş ediblər ki, həmin maneələrin götürülməsi üçün əməli tədbirlər görülsün. Məktubda icra müddəti 1 ay göstərilib. Məktubun az qala ili çıxır, məsələ hələ də həll olunmamış qalıb. Seymur Quliyev deyib ki, onun şikayətləri əsasında Dövlət Reyestr Xidməti nümayəndələri aylar öncə qəsb olunan torpağında müvafiq ölçmələr aparıblar. Nurid Əliyevin, Seymur Quliyevin bağ sahələri ilə yanaşı yaxınlıqdakı Qalib Salahzadənin bağ sahəsinin və ərazidəki evinin də ölçülərini götürüblər.

"Torpağıma ölçmə aparmağa Dövlət Reyestr Xidmətinin əməkdaşları ilə yanaşı istintaq qrupunun əməkdaşları da gətmişdilər. Bir daha gördülər ki, yolu bağlayan, mənim mülkümü qəsb edən Hacı Qalibdir. Həmin vaxt biz əraziyə gedərkən Hacı Qalibin yanında adamlar vardı. Onlara göstəriş verdi, dövlətin yoluna qoyduğu darvazanı açdılar. Dövlət Reyestr Xidməti nümayəndələri orada 4 saat ölçmə işləri apardı. Elə həmin ölçmələr zamanı aydın oldu ki, Hacı Qalib dövlətə məxsus Kardioloji Sanatoriyanın 5 sota yaxın ərazisini də öz torpağına qatıb, qəsb edib. Sanatoriya ilə onun bağının ərazisindəki hasarı götürüb və orada diskoteka düzəldib. Mənim torpağımı həmin restoranı üçün avtodayanacaq kimi istifadə edir. Orada bütün günü dəniz kənarında çal-çağırdır, diskotekada araq, çaxır, pivə verirlər, səhərə qədər çalıb-oynayırlar. Həmin ərazidə soyunma-geyinmə otaqları, duş kabinələri, kölgəliklər düzəltdirib. Məni öz torpağıma, özəl mülkümə yaxın qoymurlar" - deyə, o bildirib.

**Seymur Quliyev deyir ki, avqustun 4-də ərazidə 4 saat olub:** "Hacı Qalib nümayişkaranə şəkildə dövlətin yoluna şlaqbaum qoyub və açmır. Bakı Şəhər İcra Hakimiyyəti 1 ilə yaxındır ki, darvazanın yoldan götürülməsini və yolun açılmasını təmin edə bilmir. Onlar da mən vətəndaş kimi baxa-baxa qalıblar. Bir tərəfdə Hacı Qalibdir, bir tərəfdə də dövlət. Bu adam dövlət orqanlarını saymır, güc göstərir".

Xatırladaq ki, Qalib Salahzadə istintaq orqanında vətəndaş Seymur Quliyevin 3 və 2 mərtəbəli evlərinin yerlə bir olunması, evlərin talan edilməsi, evlərdən əşyaların oğurlanması, həyətdəki ağacların, su quyusunun dağıdılması işi üzrə dindirilir. Bundan başqa, sabiq deputat saxta sənədlə Bilgəh qəsəbəsində bağ torpaq sahəsi satmaqda iştirakçılıq işi üzrə də ifadə verib. Fakt üzrə Cinayət Məcəlləsinin 186-cı - əmlakı qəsdən məhv etmə və ya zədələmə və 188-ci - torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma maddələri ilə cinayət işi davam etdirilir. İş üzrə Cinayət Məcəlləsinin 259-cu - qanunsuz ağac kəsmə və 320-ci - rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə maddələri ilə də araşdırma aparılır. Yada salaq ki, 2018-ci ilin aprelində şikayətçi Seymur Quliyev və Nurid Əliyevin əmlaklarının dağıdılması ilə bağlı Baş Prokurorluqda cinayət işi başlanıb. İş materialları istintaq olunmaq üçün Daxili İşlər Nazirliyi İstintaq İdarəsinə göndərilib. Seymur Quliyevin sözlərinə görə, Hacı Qalib Salahzadə iş üzrə bir neçə dəfə dindirilib və onunla üzləşdirilib. Seymur Quliyev deyir ki, Hacı Qalib Salahzadə Milli Məclisin deputatı olduğu dövrdə vətəndaş olaraq onun mülkünü zəbt etməklə qanunları saymadığını ortaya qoyub. İllərdir davam edən prosesin sonu görünmür.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

**Rusiyadakı etiraz aksiyaları səngiməк bilmir. Sentyabrın 8-də Moskva Şəhər Dumasına keçiriləcək seçkilərlə bağlı bəzi namizədlərin qeydə alınmaması ilə əlaqədar keçirilən nümayişlər artan xətlə gedir. Aksiyalar daha çox həftənin son günlərinə təyin olunur.**




# Rusiyada "şənbə inqilabları" - Kreml çətin durumda

**Hikmət Hacızadə:** "Bu etirazların bir nəticəsi olacaq"
**Əhəd Məmmədli:** "Rusiyada növbəti inqilab baş versə..."




Avqustun 3-də təşkil olunan icazəsiz aksiya daha sərt olub və asayiş keşikçiləri güclə təhlükəsizliyi bərpa etməyə nail olublar. Mindən çox etirazçı saxlanılıb. İndi isə gözlər avqustun 10-11 tarixlərinə dikilib. Həmin günlərdə namizədliyi qeydə alınmayan Dmitri Kloçkov və Gennadi Qudkovun ofisinin başçısı Elvira Vixareva aksiya keçirmək üçün Moskva meriyasına müraciət ediblər.

Rus telekanalları paytaxtdakı aksiyalarda iştirak edənlərin əksəriyyətinin əyalətlərdən gətirildiyini bildirirlər. Eyni zamanda ekspertlərin cərəyan edən proseslərlə bağlı şərhləri ən müxtəlifdir. Aksiyalarda Rusiyaya qarşı sanksiyalar tətbiq edən Amerika başda olmaqla, Qərb dairələrinin izini axtaranlar da az deyil. Kreml sahibi Vladimir Putin hakimiyyəti üçün bu etirazların hansı sonuclarla nəticələnəcəyi də ciddi müzakirə edilir. Çoxları indiki şəraitdə Rusiya xalqı arasında hələ ki nüfuzunu saxlamağa nail olan Putin iqtidarına böyük təhlükə görmür. Lakin son illərdə bu tipli aksiyaların getdikcə artmasının, xüsusilə Aleksey Navalni kimi müxalifət liderinin meydana çıxmasının sonunda Putinə bağışı ola biləcəyi göz önündədir.

**Azərbaycanın Rusiyadakı sabiq səfiri Hikmət Hacızadə səslənən iddiaları əsassız sayır:** "Bu aksiyalarda Qərb dairələrinin əlinin olduğunu düşünmürəm. Aksiyaları başladan şəxslər namizədlikləri qeyd alınmayanların komandasıdır. Sonradan onlara xeyli sayda adamlar qoşulub. Kimsə deyə bilər ki, Rusiyaya qarşı sanksiyalara görə aclıq baş verib, böhran yaşanır və məhz bu səbəbdən aksiyalar baş verir. Bu başqa məsələ olardı. Bəzi ölkələrdə etirazlar olan kimi xarici dairələrin əlinin olduğu iddiaları hər zaman ortaya atılır. Bunlar mənasız iddialardır. Orada böyük ədalətsizlik baş verib. Müstəqil namizədlər qeydə alınmayıb. Deyiblər ki, sizin imzalarınız saxtadır. Saxta çıxarılan minlərlə imza sahibi gəlib deyib ki, bu, şəxsiyyət vəsiqəmin nömrəsidir, imza da mənə məxsusdur. Amma yenə qeydə almayıblar. Rus kanallarının etirazçıların böyük qisminin əyalətlərdən gətirildiyi barədə dedikləri, sadəcə, gopdan başqa bir şey deyil. Ola bilər ki, əyalətlərdən də aksiyalara qatılanlar olsun. Bu da normal bir şeydir. Obyektiv kanallara baxanda hər şey aydın görünür. Etiraz edən nümayişçilərlə qürur duyuram. Bu, birinci dəfə deyil. Bundan öncə iki dəfə böyük aksiya keçirildi. Belə aksiyalar çox vacibdir. Əvvəl-axır bu etirazların bir nəticəsi olacaq. Deyə bilmərəm ki, dərhal indi nəsə dəyişəcək, ədalət bərqərar olacaq. Amma hər halda, bunun bir nəticəsi mütləq olacaq. Putin rejimi sarsılmağa, dünyada nüfuzunu itirməyə məhkumdur".

**Politoloq Əhəd Məmmədli öncə yaxın tarixə ekskurs etdi:** "2011-ci ilin qış ayları idi. Yerli və dünya mətbuatı "Ərəb baharından, rus qışına" manşetləri ilə bürünmüşdü. Həmin dönəmlər Rusiyada parlament seçkilərindən sonra Moskvada müxalifətin post-Yeltsin dövrü üçün ən böyük mitinqləri keçirilirdi. Sonda heç bir "rus qışı" olmadı. Putin 2012-ci ilin baharında rahat şəkildə prezident kürsüsünə qayıtdı. Həmin o hadisələrdən 8 il keçdi. Rusiyanın sistemdən kənar müxalifəti yenə meydanlardadır. Bu dəfə mitinqlərə səbəb Moskva Şəhər Dumasına keçirilən seçkilərə liberal müxalifətin əsas simalarının qeydiyyata alınmaması səbəb oldu. Neçə gündür Moskva və Sankt-Peterburqda razılaşdırılmamış aksiyalar keçir. Müxalifət liderlərinə inzibati cəzalar verilsə də, sıravi mitinq iştirakçılarına cinayət işləri də açılır. Fikrimcə, Moskva Şəhər Dumasına müxalifətin namizədlərinin qeydə alınmaması səhv addım idi. Bu onu göstərir ki, müxalifətin bütün nəfəs imkanları kəsiləndə bu, əks-effekt verir. Məsələn, Rusiyada bu əks-effekt bir, Azərbaycanda başqa cür özünü göstərir. Moskva Şəhər Dumasına liberal müxalifətin namizədləri qeydiyyata alınmalı, sonra da onlar Şəhər Dumasına buraxılmalı idi. Biri var iqtidar-müxalifət qarşıdurması sivil formada bağlı divarlar arasında keçir, biri də var küçə formasını alır. Avqustun 10-11-də rus sistemdən kənar müxalifəti razılaşdırılmış mitinqlər keçirəcək. Bu aksiyalardan sonra dəqiq nəsə söyləmək olacaq. Bu mitinqlərin 2011-ci ildə keçirilən aksiyalar kimi böyük olması belə, hələ heç nə demək olmayacaq. Lakin 2011-ci ildən fərqli müxalifətin mitinqləri azalma deyil, çoxalma istiqamətində davam etsə, bu, Putin rejiminin sonuna da gətirib çıxara bilər. Taktiki geri çəkilmələr strateji qələbələrin bünövrəsini qoyur. Hərdən isə lazımsız taktiki direniş illərdir cızılan strategiyanın məhvinə belə səbəb ola bilər".

**Politoloq aksiyalara pulla iştirakçıların gətirilməsi barədə iddialara da toxundu:** "Mitinqlərə pulla adam gətirmək sınanmış metoddur. Bu metod Qərbdən gəlir. Və normal da sayılır. Burada qeyri-adi heç nə yoxdur. 2004-cü ildə Ukraynada "narıncı inqilab"da hər iki tərəf Kiyevin Nezalejni meydanına pulla avtobuslarla adamlar göndərirdilər. Bu da heç kəsə sirr deyildi. Rusiyada indiki mitinqlərə gəldikdə isə sistemdən kənar müxalifətin əsas elektoratı Moskva və Sankt-Peterburqdadır. Əsas mitinqlər də bu iki şəhərdədir. Ona görə kənardan nümayişçilərin gətirilməsi iddialarını əsassız sayıram. Yenə təkrarlayıram, adamlar kənardan gətirilsə belə buna normal baxıram. Putini də, hər bir avtoritar rejimi də sıxışdırmaq mümkündür, əgər meydanda xalq olacaqsa. Rusiya xalqı meydana çıxsa, bunun qarşısında heç kəs dura bilməyəcək. Necə ki çar, kommunist rejimləri xalqın qarşısında dura bilmədilər. Rusiyada iki dəfə inqilab olub, hər ikisində də bu inqilablar rus dövlətinin mövcud siyasi quruluşunun məhvi ilə nəticələnib. Rus imperatorluğu dağıldı, SSRİ quruldu, SSRİ dağıldı, Rusiya Federasiyası varis kimi rus dövlətçilik ənənələrini davam etdirdi. Rusiya dağılsa nə olacaq? Deməyim odur ki, Rusiyada inqilablar həmişə bu ölkənin dağılması, ən azı ərazilərinin bir hissəsinin itirilməsi ilə nəticələnib. Fikrimcə, Rusiyada növbəti inqilab baş versə, bu ölkə daha böyük təlatümlər yaşayacaq. Bütün bu prosesləri Qərbin maraqlı dairələri təbii ki, diqqətlə izləyir. Vəziyyət dərinləşdikcə, Qərb məsələlərə müdaxilə edəcək, nəzarətdə saxlamağa çalışacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İsgəndər Həmidov ağır xəstədir

## Eks nazir bir neçə ay sonra müalicə üçün Avropaya yollanacaq

**Sabiq daxili işlər naziri, Azərbaycan Xalq Hərəkatının (AXH) təsisçilərindən olan İsgəndər Həmidov xərçəng xəstəliyindən əziyyət çəkir.**



Musavat.com xəbər verir ki, bu haqda Müsavat TV-nin canlı efirinə qonaq olan Gələcək Azərbaycan Partiyasının (GAP) sədri, AXH üzvü Ağasif Şakiroğlu deyib. Onun sözlərinə görə, İ.Həmidovun ağciyərində bədxassəli şişin olması onun Türkiyə səfəri zamanı aşkarlanıb. Belə ki, iyun ayının əvvəlində ürəyindəki problemlərə görə Türkiyəyə yola düşən və ürəyinə stent qoyulmasına hazırlaşan İ.Həmidova orada xərçəng xəstəsi olduğu bildirilib. Aparılan müayinə və analizlər nəticəsində ağciyərində aşkarlanan şişin bədxassəli olduğu təsdiqlənib. Əməliyyat isə ürəyinin zəif funksiyasına görə baş tutmayıb.

Hazırda bir neçə günlük Bakıda olan İ.Həmidov müntəzəm həkim nəzarətindən və kimya terapiyadan keçir. Yaxın günlərdə Şamaxıdakı evinə qayıdacaq olan eks nazir bir neçə ay sonra müalicə üçün Avropaya yollanacaq.

A.Şakiroğlu bu müddətdə İ.Həmidovun mediaya açıqlama verməməsinin, jurnalistlərlə ünsiyyətdən imtina etməsinin səbəbini belə izah etdi: "Səhhətindəki bu problem onun xarici görünüşünə və təbii ki, əhvalına da təsir edib. O, medianın və geniş ictimaiyyətin qarşısına bu formada çıxmaq istəmir. Allah qoysa, səhhəti qaydasına düşər, problemlər arxada qalar, ondan sonra media ilə görüşər. Özü belə istəyir".

Müsahibimiz eyni zamanda dedi ki, müxalif cameədəki bir çox insanlar İ.Həmidovun səhhətindən xəbərdardılar. Onun fikrincə, bu səbəbdən də bəzilərinin "O, niyə ortalarda yoxdur?" sualını səsləndirməsi qeyri-səmimilikdən xəbər verir.

❑ **SEVİNC, Musavat.com**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019



# Qətliamların əsas səbəbi - asan tapılan silah

Xalid KAZIMLI

**ABŞ-da dinc insanların qırğını davam edir. Bu, yeni məsələ deyil. İllərdir ki, 50 dövlətin birləşməsindən ibarət olan bu qüdrətli superdövlətdən vaxtaşırı bu cür xəbərlər gəlir.**

Az qala günaşırı polismenlər dinc sürücüləri (əsasən qaradərililəri) yolun ortasında güllələləyir. Çox vaxt məlum olur ki, polismen "saxla" əmri verib, sürücü saxlayıb, ancaq avtomobildən düşərkən əlini cibinə aparıb. Vəssalam. Buna görə adamı dəlik-deşik ediblər.

Son on ildə yüzlərlə belə hadisə olub.

Bundan başqa, həftədə bir neçə dəfə əyləncə məkanlarında 3-5 nəfərin ölümüylə, 6-7 insanın yaralanmasıyla nəticələnən atışma qeydə alınır.

Bir də ayda bir dəfə hansısa psixopat silahını götürüb məktəbə, alış-veriş mərkəzinə, insanların qələbəlik olduğu yerlərə daxil olur, ağına-bozuna baxmadan günahsız insanları qırıb-tökür.

O cür hadisələrdən ikisi bu günlərdə təxminən eyni vaxtlarda baş verib - Texas və Ohayoda silahlı şəxslər dinc insanları güllələbaran edib öldürüblər. Toplamda 35 nəfərdən çox adam ölüb.

Ümumiuyyətlə, elə bir gün olmaz ki, ABŞ-ın ayrı-ayrı ştatlarında odlu silahdan istifadə edilməsin, insanlar öldürülməsin.

Bu, Trampın prezident olmasından öncə də beləydi, indi də belədir, Trampdan sonra da belə olacaq.

Ona görə də bu cür hadisələri Trampın irqçiliyinə, qaradərililəri və meksikalıları hədəf göstərməsinə bağlamaq olmaz. Ona qalsa, qaradərili Obamanın hakimiyyəti dövründə də qaradərililəri öldürürdülər. (Qaradililərin adam öldürməsi halları daha çoxdur).

ABŞ-da baş verən qətliamların səbəbləri haqqında danışarkən bir neçə versiya üzərində dayanmaq olar, amma onların heç biri həqiqəti tam əks etdirməyəcək

Bu xüsusda yeganə bir həqiqət var: dünyanın ən qüdrətli ölkəsində odlu silahdan atəş açılması nəticəsidə ölənlərin çox olmasının başlıca səbəbi odur ki, bu ölkədə hər kəsin, ən çox da kriminal ünsürlərin hər cür döyüş silahını asan əldə etmələridir.

Az qala hər bir yetkin ameriakalının evində silahı var. Onların bir çoxu silahlarını üstlərində gəzdirməyi sevir, ilk təhlükə anında ona əl atırlar.

ABŞ-da kriminogen durum zatən hər zaman gərgin olub, onun üstünə bir də kriminal ünsürlərin hamsının silahlı olmasını gələndə, mənzərə aydın olur - maraqların toqquşduğu təqdirdə silahlı toqquşmalar da qaçılmazdır.

Hələ manyaklar, psixopatlar faktoru da var. Aydın məsələdir ki, müxtəlif ruhi xəstəliklərə məruz qalaraq başı pozulmuş, bu cür xəstəliklərin fərqli stadiyalarında olan adamlar hər bir ölkədə var. Onlar öz şəxsi problemlərinə görə bütün bəşəriyyəti günahkar bilirlər. Belə adamlar əllərinə qırğın silahı keçirdikləri vaxt kütləvi qətliamlar mütləq baş verir.

Qarşılarıa daha çox insan və əsasən də amerikalı öldürməyi məqsəd qoymuş beynəlxalq terrorçuların dərdi də bir başqa növdür.

Belə adamların əlindəki silah teatr tamaşasında divardan asılmış tüfəng kimi mütləq əvvəl-axır açılacaq.

Maraqlıdır ki, başqa ölkələrdə bu cür kütləvi güllələbaranlar olduğu zaman yerli hökumətlər qısa müddətdən sonra odlu silahların məhdudlaşdırılmasına dair qanunlar qəbul edir, döyüş silahlarının toplanması üçün tədbirlər görürlər (məsələn, Yeni Zelandiyada 50 nəfərin Kraystçörç şəhərində güllələnməsindən sonra elə oldu), amma ABŞ-da nə qədər adam güllələnsə də, odlu silahların açıq satışda olmasını yasaqlayan qanunlar qəbul edilmir.

Bunu silah satşından milyardlar qazanan şirkətlərin qanunvericilik hakimiyyətində lobbiçiliyini edən siyasi dairələrin fəaliyyətinə bağlayırlar. Gerçəkdən də belədir, ya belə deyil, birmənalı iddia irəli sürmək olmur.

Ancaq birmənall olaraq demək olar ki, bir psixopatın əlindəki iti bıçaqla "Kalaşnikov" avtomatının çox ciddi fərqi var. Həmin psixopat bıçaqla ən çoxu bir adamı öldürə, iki adama xəsarət yetirə yetirə bilər, sonra onu mütləq zərərsizləşdirəcəklər. Amma əlində "Kalaşnikov" tutmuş və insanların gur olduğu məkana daxil olmuş psixopat (və ya terrorçu) gülləsi qurtarana qədər adam öldürməkdə davam edəcək. Əgər onun ehtiyat güllə darağı da varsa, bu halda o, hətta norveçli qatil Breyvikin rekordunu (77 nəfərin qətli) da qıra bilər.

Ona görə istənilən ölkədə əhalidən odlu silahların yığılması üzrə həyata keçirilən tədbirlər alqışlanmalıdır.

# Əli Kərimli partiyasına adam axtarır

## Elçin Mirzəbəyli: "Kərimlini AXCP-nin klaviaturasının lideri kimi təqdim etmək mümkündür"

**AXCP lideri Əli Kərimli partiyasına adam axtarır. Onun son olaraq, öz facebook səhifəsində paylaşdığı status bunu deməyə əsas verir. Partiya sədri hər kəsi rəhbəri olduğu təşkilata üzv olmağa çağırıb, bunun üçün hətta pafoslu cümlələr işlədib, statusunun ilk rəyində üzvlük anketini yerləşdirib.**

Ə.Kərimlinin statusu geniş müzakirələr doğurub. Bu da səbəbsiz deyil. Doğrudur, hər bir partiya rəhbərinin hər kəsi təşkilatına üzv olmaq üçün çağırış etmək hüququ var. Amma Kərimlidə vəziyyət tamam fərqlidir. Statusda açıq şəkildə şişirdilmiş statiskalar diqqət çəkir. O, AXCP-nin ölkənin ən yaxşı təşkilatlanmış partiya olduğunu qeyd edir, 70-dən çox rayonda mindən artıq dayaq dəstələrinin olduğunu bildirir, hər ay yüzlərlə vətəndaşın partiyasına qoşulduğunu söyləyir, status paylaşımını daha da çox olmaları ilə əlaqələndirir. Bu da haqlı olaraq bir sualı meydana çıxarır.

Əgər AXCP-nin bu qədər üzvü varsa, yaxud hər ay yüzlərlə üzv qəbul olunursa, nə üçün partiya icazəli mitinqlərə bir neçə təşkilatla birlikdə ən yaxşı halda 2-3 min iştirakçı çıxarır?

Qeyd edək ki, Ə.Kərimlinin rəhbəri olduğu AXCP 18 ildir fəaliyyət göstərir. Mərhum prezident Əbülfəz Elçibəyin rəhbərlik etdiyi AXCP onun 2000-ci ildə ölümündən sonra bir neçə hissəyə parçalanmış və qanadlardan birinə bu günə qədər Ə.Kərimli rəhbərlik edir. Onun ciddi bir uğur qazandığını söyləmək çox çətindir. Ən yaxşı halda müxalifət daxilindəki birincilik yarışında ön sıralarda olmağı bacarıb.



**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında Ə.Kərimlinin AXCP-nin heç bir qanadına rəhbərlik etmədiyini söylədi:** "Əli Kərimli çox güman ki, sosial şəbəkələrdə, əksər hallarda xaricdən idarə olunan səhifələrdəki trolların nəzərdə tutur. Qeyd edək ki, hazırda trolların klonlaşdırılması ilə bağlı xüsusi proqramlar var. Bu robot-proqramların vasitəsilə bir neçə dəqiqənin içərisində yüzlərlə profil açmaq, hədəfə alınan regionun xüsusiyyətlərinə və reallıqlarına uyğun virtual "vətəndaşlar" yaratmaq mümkündür. Belə proqramlardan əsasən ayrı-ayrı ölkələrin xüsusi xidmət orqanları istifadə edirlər. O ki qaldı Əli Kərimlinin siyasi biznes strukturunun insan potensialına, belə potensial nəinki yoxdur, heç olması da mümkün deyil. Hətta hansısa narazı insanların bu və ya digər şəkildə öz ürəklərini boşaltmaq üçün Kərimlinin pafoslu, arqumentdən uzaq emosional boşboğazlıqlarına münasibət bildirməsi mümkündür. Amma bu o anlama gəlmir ki, həmin şəxslər onu bir siyasətçi kimi qəbul edirlər. Həmin şəxslər narazılıqların dilə gətirildiyi istənilən virtual məkanda aktivdirlər. Onlar üçün fərqi yoxdur Əli olsun, Məmməd olsun, yaxud Fatmanisə, ya da Tükəzban... Mən daha öncə klonlaşdırma proqramlarından söz açdım. Düşünürəm ki, bu artıq öz ömrünü başa vurmuş və hətta Yaxın Şərqdə, Aralıq dənizi hövzəsində belə effektivliyini itirmiş siyasi texnologiyadır. Əli Kərimlinin feysbuq partiyası yalnız virtual məkanda keçirilən "aksiyalar"da görünə bilər. Tövsiyə edərdim ki, Mark Zukerberqə müraciət edib "partiyasını" qeydə aldırsın. Çünki onun siyasi iddiasını təmin edə biləcəyi yeganə məkan feysbuqdur. Kərimli AXCP-nin heç bir qanadına rəhbərlik eləmir. Əgər qanadı olsaydı, öz potensialını dəfələrlə üstələyən hikkəsi ilə hətta tək qanadla da uçmağa cəhd göstərərdi. Kərimli olsa-olsa AXCP-nin lələyinə rəhbərlik edə bilər. Bir az da müasir informasiya və kommunikasiya texnologiyaları nəzərə alsaq, Kərimlini AXCP-nin klaviaturasının lideri kimi təqdim etmək mümkündür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# YAP funksioneri müxalifəti üsyana çağırışda suçladı

## Əli Əhmədov yazır ki, müxalifətin aqressiv, qeyri-konstruktiv qanadına mənsub olan təmsilçiləri zorakılıq çağırışları edir, xalqı üsyana səsləyir

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov facebook səhifəsində müxalifəti ittiham edib. O, statusunda yazıb ki, müxalifət maraqlı xarici qüvvələrlə birləşərək və onların tapşırıqları əsasında Azərbaycana qarşı şər, böhtan, yalan üzərində qurulmuş total kampaniyaya başlayıb:**



"Məqsəd ölkəmizin davamlı inkişafı yolunda əngəl yaratmaq, insanların rifahının yaxşılaşdırılması üçün həyata keçirilən layihələrin müsbət təsirini azaltmaq, Azərbaycanın imicinin üzərinə kölgə salmaqdan ibarətdir. Mahiyyət etibarilə milli maraqlarımıza zidd olan nə varsa, onu etməyə hazırdırlar və məmnuniyyətlə edirlər. Gücü və təsiri az olsa da, müxalifət tarixdə lənətlənmiş "beşinci kalon" roluna hazır olduğunu da lazımi ünvanlara çatdırıb. Beləliklə də, "müxalifət" adı altında antimilli qrup formalaşıb, fəaliyyət göstərir. Ortada nə proqramları var, nə strategiyaları, nə ictimai dəstəyi, nə də insanların azacıq olsa da inamını qazanmış liderləri. Görünən qeyri-sağlam siyasi iddiaları, bu iddiaları həyata keçirmək naminə ən çirkin formalara əl atmaq istəyi, milli maraqlarımıza böyük təhlükə olan qüvvələrlə iş birliyinə hazır olmalarıdır. Müxalifətin bütün fəaliyyətinin xaricdə cəmləşməsi, xarici qüvvələrin dəstəyi ilə geniş təbliğat şəbəkəsi yaratması, həmin qüvvələrin səylərilə sabitliyi, əmin-amanlığı pozulan ölkələrdə sınaqdan çıxan üsul və metodlardan istifadə etməsi rəqabət mübarizəsində onun siyasi metodlara deyil, digər metodlara istinad etmək niyyətlərindən xəbər verir. Müxalifətin aqressiv, qeyri-konstruktiv qanadına mənsub olan təmsilçilərinin tez-tez zorakılıq çağırışları etməsi, xalqı üsyana səsləyən təbliğatın aparılması buna əyani misaldır. Burada prezident İlham Əliyevin may ayında Respublika günü münasibətilə toplantıda Azərbaycana qarşı qeyri-sivil təbliğatın aparılması barədə fikirlərini xatırlatmaq yerinə düşərdi. Nəticədə məqsəd və fəaliyyət formalarına görə siyasi təşkilat kimi çıxış etməli olan müxalifət qeyri-siyasi və qeyri-konstruktiv ünsürə çevrilir. Bu gün Azərbaycanda müxalifət dedikdə, çox təəssüf ki, əsasən məhz belə mənzərə və iştirakçılar göz önünə gəlir.

Müxalifətin qeyri-sağlam və qeyri-konstruktiv qüvvəyə transformasiyası səbəbindən bütün milli qüvvələrin birləşib səfərbər olması, dövlətçiliyin və sabitliyin keşiyində dayanması aktuallıq kəsb etməyə başlayıb.

Yeni Azərbaycan Partiyası Azərbaycanda siyasi mübarizənin sivil, demokratik formalarının bərqərar olmasında müstəsna xidmətlər göstərib. Bugünkü uğurlarımızın qorunub saxlanması, gələcək uğurlarımızın isə təmin edilməsi naminə həmin ənənələr davam etdirilməli, siyasi mübarizənin çirkin və təhlükəli üsullardan təmizlənməsi, "müxalifət" adı altında antimilli cəbhənin yaranmasının qarşısının alınması sıralarımızın daha da güclənməsini tələb edir. İnanıram ki, Yeni Azərbaycan Partiyası özünün gücü, səfərbərliyi, qətiyyəti, dövlətə və Prezident İlham Əliyevə sədaqəti ilə bütün antimilli qüvvələrin qarşısında keçilməz manea olacaq, onların bütün təxribat cəhdlərinin qarşısını alacaq, yalan, böhtan, şayiə üzərində qurulmuş təbliğatına Azərbaycanın bu gününü əks etdirən, parlaq gələcəyindən xəbər verən reallıqlar əsasında tutarlı cavab verəcək.

Biz doğru yoldayıq. Bu yolda fədakarlığa dəyər və Yeni Azərbaycan Partiyasının bütün fəal üzvlərini, gəncləri yeni fədakarlıqlara səsləyirəm".

**Avqustun 4-də Bakının Qaradağ rayonunda yerləşən “Sədərək” ticarət mərkəzinə məxsus anbarlardan birində yangın baş verib. Yanğın şiddətli olduğu üçün bir neçə saat qarşısını almaq mümkün olmayıb. Hadisə zamanı insanlara Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə yanaşı Daxili İşlər Nazirliyinin ərazidə xidmət aparan heyəti də kömək edib.**

# Ticarət mərkəzindəki yanğınların iki mühüm səbəbi

## Sahə üzrə mütəxəssislər bildirirlər ki, insanlar naqilləri düz seçmir, elektrik xətlərini çəkdirən zaman xəsislik edirlər







Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, xilasetmə zamanı polis əməkdaşlarından da bir neçəsi tüstüdən zəhərlənib. Rəsmi məlumata görə, “Sədərək”də baş vermiş yanğın zamanı təcili tibbi yardıma müraciət edənlərin ümumi sayı 16 nəfər olub. Onlardan 6-na yerində yardım edilib, 10 nəfər isə xəstəxanaya yerləşdirilib. Həmin şəxslərdən biri yanğın baş verən ticarət mərkəzinin əməkdaşı olub. Qalanlar isə yanğının söndürülməsində iştirak edən Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin əməkdaşları olublar. Müraciət edənlərə tibbi yardım göstərildikdən sonra evə buraxılıblar.

Fövqəladə Hallar Nazirliyi yanğınla bağlı açıqlamasında bildirib ki, “Sədərək” ticarət mərkəzinin ərazisində ümumi sahəsi 1600 $m^2$ olan müxtəlif təyinatlı anbarın yanar konstruksiyaları və içərisində olan mallar 900 $m^2$ sahədə yanıb. Anbarın qalan hissəsi və bitişik anbarlar yanğından mühafizə olunub.

Fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev jurnalistlərə açıqlamasında söyləyib ki, ikinci çağırışla hadisə yerinə 25-dən çox yanğınsöndürən maşın, 120-dən çox yanğınsöndürən cəlb olunub. E.Mirzəyev qeyd edib ki, sahibkarlara mallarının əksəriyyətini çıxarmağa imkan yaradılıb, dəymiş ziyanın həcmi araşdırılacaq və bu barədə müvafiq məlumat veriləcək.

Ticarət mərkəzlərində bu cür yanğınlar tez-tez baş verir. Sonuncu dəfə ən böyük yanğın “Diqlas” ticarət mərkəzində baş vermişdi. Hazırda yanğından zərər görən binasının tamamilə söküldüyü “Diqlas”ın ümumi sahəsi ümumi sahəsi 17 559 kvadratmetr idi. Yanğın zamanı sahibkarlara xeyli ziyan dəydi. Lakin zərərin bir qismi dövlət tərəfindən ödənildi. Belə ki, ölkə prezidentinin sərəncamı ilə dövlət tərəfindən ayrılan maddi yardımdan mağaza, anbar icarəyə götürmüş zərər çəkmiş sahibkara - 10000 manat, piştaxta və digər sahə icarəyə götürmüş zərər çəkmiş sahibkara 2000 manat ödənildi.

“Diqlas”dan öncə Qara Qarayev prospektində yerləşən “X-lady” və “Ağ çiçəyim” mağazalarında da ayrı-ayrı günlərdə yanğın baş verdi. Hər iki mağazadakı yanğının baş vermə səbəbi kimi qısa qapanma göstərildi.

Yanğından niyə qoruna bilmirik?

Ekspertlər bunun səbəbi kimi müxtəlif fikirlər irəli sürürlər. Birinci variant odur ki, mərkəzdən kənarda yerləşən əksər mağazaların su anbarları, yanğını lokallaşdıran qurğuları mövcud deyil. İkinci səbəb isə gecədən səhərə qədər işlək saxlanılan cihazların xüsusilə də kondisionerlərin naqilləri qızdırması, nəticədə isə qısa qapanmanın baş verməsi göstərilir. Bu məsələ ilə bağlı “Yeni Müsavat” qəzeti olaraq indiyədək xeyli araşdırma, reportaj yazmışıq.

**Qəzetimizə danışan sahə üzrə ekspert Nüsrət Qasımov hesab edir ki, insanlar naqilləri düz seçmirlər:** “Öyrənmək gərəkir ki, nə qədər elektrik sərf olunacaq və naqillər bu yükə necə davam gətirəcək. İlk növbədə elektrikin yükü müəyyən olunmalıdır ki, içəridə neçə voltluq cihazlar qurulacaq. Onların hamısını nəzərə alıb, artıqlaması ilə naqillər seçilməlidir. Bütün bu proseslərdən sonra işıq xəttinə qoşulan zaman dövlət komissiyası onu qəbul etməlidir. İş prosesində həmin naqillərin yükgötürmə qabiliyyətinə uyğun olan cihazlardan istifadə edilməlidir. Əgər yükdən artıq quraşdırma olarsa, kabellər gücə düşür və qısa qapanma əmələ gəlir, yanğın olur. Obyekt tikilən zaman hər bir tikilinin qarşısında, insanların kütləvi yığışdıqları yerlərdə yanğın qolları qoyulmalı, anbarlar yaradılmalıdır. Əks halda, yanğınsöndürənlər gedib, iki saat su axtarırlar. Onlar gələnə qədər də obyekt külə dönür. Həmçinin obyektin içərisində plakatlar asılıb, maariflləndirmə işləri aparılmalıdır. Yanğın şitlərinin yanında bütün lazımi avadanlıqlar yerləşdirilməlidir. Bundan da əlavə, obyektdə siqnalizasiya quraşdırılmalıdır. Tüstü olan zaman bu qurğular işə düşür və hətta adi insanlar da yanğın genişlənməmiş qarşısını alırlar. Azərbaycanda əksər obyektlərdə sadaladıqlarıma əməl edilmir”.

**Elektrik naqilinin satışı ilə məşğul olan Ariz Həmidov “Yeni Müsavat”a bildirib ki, insanlar hər hansı bir evə və ya obyektə elektrik xətləri çəkən zaman naqilləri düz seçsələr də, yanlışlığa yol verirlər:** “İnsanlar avtomatların sayını az quraşdırıb, ümumi şiti balaca edirlər ki, çox xərcə düşməsinlər. Əslində isə kondisionerə, çox yük götürən cihazlara ayrıca avtomat qoyulmalıdır. Elektrik şiti isə yanar konstruksiyadan kənarda, evin və ya obyektin çölündə olmalıdır. Bizdə buna fikir verən az adam var. Əsasən də mağazalarda bu cür hallara diqqət etmirlər. Bir məsələ də var ki, insanlarda son zaman belə bir fikir yaranıb ki, naqili yanmayan borunun içərisi ilə apardıqları zaman tamamilə sığortalanırlar. Bu da yanlış fikirdir. Hər kəs bilməlidir ki, yanmayan boru deyilən bir şey yoxdur. Bu, sadəcə olaraq, izolyasiyadır və müəyyən kiçik qığılcımı sıxılaraq, söndürə bilər. Yaxud da qızma olarsa və xətt yanar konstruksiyanın üzərindən keçərsə, həmin boru yanmanın qarşısını ala bilər. Ancaq qısa qapanma varsa, içəridə güclü qızma gedirsə, boru da yavaş-yavaş əriyib yanacaq. Ona görə də xətləri mümkün qədər daşın və ya digər yanmayan konstruksiyanın üzəri ilə aparıb, bundan sonra boruya salmaq lazımdır. İnsanlar naqil seçən zaman çox da xəsislik etmirlər. İşi gördürən zaman isə ya özləri edirlər, ya da elektrikdən anlayışı olmayan adama iş gördürürlər. Nəticə isə ağır olur”.

Onu da qeyd edək ki, konkret olaraq “Sədərək” ticarət mərkəzində bundan öncə baş verən yanğınlar zamanı ticarət mərkəzinin rəhbərliyi tərəfindən zərər görmüş sahibkarlara kompensasiya ödənilib. Hazırda isə hələ ki dəymiş zərərin miqdarı hesablanmadığı üçün kompensasiya barəsində də heç bir məlumat verilmir.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**



## Azərbaycanlı zəvvar Məkkədə dünyasını dəyişdi

**Azərbaycandan Həcc ziyarətinə gedən zəvvarlardan biri dünyasını dəyişib. Qafqaz Müsəlmanları İdarəsindən “Trend”ə verilən məlumata görə, dünyasını dəyişən zəvvar Ağdam rayonundan olan 69 yaşlı Şükürov Bəhmən adlı şəxsdir.**

Ürək tutmasından dünyasını dəyişən Ş.Bəhmən Səudiyyə Ərəbistanında dəfn olunacaq. Qeyd edək ki, bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1400 nəfərlik kvota qoyulub. Zəvvarların avqustun 21-dən 25-nə qədər Həcc ziyarətindən Azərbaycana dönmələri planlaşdırılır. Onlar 8 təyyarə reysi ilə geri qayıdacaqlar.

Bu il Həcc ziyarətinin qiyməti 4285 ABŞ dolları təşkil edir.

## Bakıda yaşayış binasında yanğın həyəcanı

**Bakıda çoxmərtəbəli yaşayış binasında yanğın olub. Fövqəladə Hallar Nazirliyindən virtualaz.org-a verilən məlumata görə, paytaxtın Xətai rayonunda çoxmərtəbəli yaşayış binasında şaxta boyunca kommunikasiya xətləri və elektrik naqilləri 42 p.m yanıb. Yanğın zamanı 5 nəfər bina sakini yanğınsöndürənlər tərəfindən təhlükəsiz əraziyə təxliyə olunub.**

Mənzillər yanğından mühafizə olunub və yanğın söndürülüb.

## Alkapon söküntüsünə görə sahibkarların arenda şikayətinə reaksiya

**Ötən həftə paytaxtın Bakıxanov qəsəbəsində 8 binada alkapon söküntüsünə görə obyektlərin fəaliyyətinin zəiflədiyini yazmışdıq. Ticarətçilər iddia edirdilər ki, “Uğur-2” yaşayış kompleksində gedən təmir işləri ilə əlaqədar müştəri üzünə həsrət qalıblar və dükanlardan aylıq icarə haqqı alan bir MMC onlara bu məsələdə güzəştə getmir.**

Məsələ ilə bağlı həmin **MMC-nin direktoru Fariz İbrahimli** “Yeni Müsavat”la əlaqə saxlayıb və bunları bildirib: “Sözügedən binada bu ilin mayından etibarən sakinlər üçün daha təhlükəsiz yaşayışlarının təminatı ilə bağlı olaraq alkapon söküntü işləri başladılıb. Qeyd edim ki, alkapon söküntü işləri həyata keçirən şirkətlə bizim ”MMC"nin heç bir bağlılığı yoxdur.

Söküntü işləri başladıqdan sonra təbii olaraq obyekt icarəçiləri mənə yaxınlaşaraq alverlərinin azalması səbəbini göstərərək müəyyən güzəşt edilməsini bildirdilər.

İcarəçilərlə ofisdə həyata keçirilən görüş zamanı onlara mənə ayın sonuna kimi müddət verilməsini xahiş edərək birmənalı köməklik göstərəcəyimi bildirdim.

Və təbii olaraq müraciət edən hər bir icarəçiyə verdiyim sözə uyğun olaraq 1 ay müddətinə aylıq icarə haqlarına tam şəkildə güzəşt edildi, onlarla bağlanmış müqavilələrə əlavələr imzalandı, icarəçilər bizim bu addımı yüksək qiymətləndirdilər.

Müqavilə əlavələri üzrə güzəştlər iyun və may aylarında həyata keçirilib. Və bu günə kimi də tərəfimə hər hansı bir şikayət daxil olmayıb.

Yuxarıda qeyd edilənlərə baxmayaraq məqalənizdə qeyd etdiyiniz “Biz bir ay işləyə bilməmişik. Buna görə bir qəpik də yer pulu verməməliydik. Biz neçə dəfə xahiş elədik ki, arendanın məbləğində güzəşt edin, dedilər müraciətə baxılacaq, amma nəzərə almadılar. Əgər sən təmir işlərinə başlamısansa və mən sənin ucbatından öz gəlirlərimdən olmuşamsa, ən azı icarə hesablanmalıdır, heç olmasa yarısı verilməlidir" ifadələr tamamilə həqiqətdən uzaqdır.

Bu günə kimi yaranan problemlər icarəçilərlə MMC arasında həll olunaraq çözüldüyü kimi bu gündən sonra da hər hansı problem təbii ki, həll olunacaq".

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**



# Uçan adamın dərsləri

Zamin HACI
zaminhaci@gmail.com

**Uşaq vaxtı Kir Bulıçev adlı sovet fantast yazıçısının bir əsərini oxumuşdum, orada gələcəyin insanları şarabənzər uçan qurğulara minib sərbəst şəkildə hara istəsələr gedirdilər. İnsanın uçmaq arzusu yəqin elə insanlıq tarixi qədər qədimdir. Bunun İkar haqda əfsanəsindən dahi Leonardonun çəkdiyi uçan qurğu çertyojlarına qədər çoxlu "qanadları" olmuşdur. Srağagün isə bəşəriyyət uçuş yolunda daha bir fantastik sıçrayış etdi: fransız Frenk Zapata özünün düzəltdiyi hoverbord adlı qurğunun üstündə La Manş körfəzi üzərindən 35 kilometr uçaraq İngiltərədə yerə endi. Videosu çox fantastik mənzərə idi. Adam faktiki bir lövhə üzərində, ayaq üstündə uçaraq gedir, yaxınlığında isə helikopterlər uçur. Zapatanın kəşf elədiyi bu qurğu saatda 170 kilometr sürət yığa bilirmiş. İnqilabi hadisə idi. Hələ üstündə işləyəcəklər, hələ bunun kütləvi istehsalının, uçuş təhlükəsizliyinin tənzimi (məsələn, iki nəfər 170 kilometr sürətlə toqquşsa nə olar?) kimi işləri var. Ancaq hər inqilabi yenilik belə başlamayıbmı? Elə bizim indiki uçuşlarımız fransız Monqolfiye qardaşlarından başlamayıbmı?**

Təsəvvür edin, 18-ci əsrin (!) sonları, lap konkret yazsaq, 1783-cü ildir. Jozef-Mişel və Jak-Etyen Monqolfiye qardaşları hava şarı ilə uçmaq üçün Parisdə təcrübələr aparırlar. Öncə yay aylarında 200 kilo yüklə uçuş edirlər. Sentyabrda xoruz, qoyun və ördəyi uçurdular. Nəhayət, noyabr ayında 2 nəfər 915 metr hündürlükdə, 9 kilometr uçur.

Bundan haradasa 100 ildən çox keçəcək, Mirzə Ələkbər özünün dillər əzbəri olmuş şeirini yazmağa məcbur olacaq: "Dindirir əsr bizi, dinməyiriz, Atılan toplara diksinməyiriz, Əcnəbi seyrə balonlarla çıxır, Biz hələ aftamabil minməyiriz. Quş kimi göydə uçur yerdəkilər, Bizi gömdü yerə minbərdəkilər". Ancaq biz elə həmin 1783-cü ilə qayıdaq. Görək həmin vaxt dünyada və Azərbaycanda nələr olurdu. Çox əziyyət çəkmədən Google-da "1783-cü il" yazıb baxırıq. Buyurun: "3 sentyabr - Paris (Versal) sülh müqaviləsinin imzalanması, İngiltərənin ABŞ-ın müstəqilliyini tanıması; 11 oktyabr - Rusiya Elmlər Akademiyası təsis edilib. İlk prezidenti knyaginya Yekaterina Daşkova olub; Krım yarımadası Rusiya İmperiyasına birləşdirildi. Həmin ildə də Krımda Sevastopol şəhərinin əsası qoyuldu". Şarların uşuçunu da yuxarıda yazdım, təkrar eləmirəm. İndi isə biz tərəflərə "enək", görək buralarda nələr olurmuş: "İrəvanda üsyan nəticəsində Hüseynəli və Məmmədhəsən xan qardaşları öldürüldü, Hüseynəli xanın oğlu Qulaməli xan hakimiyyətə (1783-1785) gəldi; Xoy xanı Əhməd xan tərəfindən Cəfərqulu xan Naxçıvanda hakimiyyətə gətirildi; Gəncədə Hacı bəyin başçılığı ilə baş verən üsyan nəticəsində ikihakimiyyətliliyə son qoyuldu; Xoy xanı Xudadad xan Təbriz döyüşündə Əli xan Şəqaqiyə qalib gəldi".

236 il keçib. İndi vəziyyət necədir? "Kanala düşən Bentlinin yiyəsi biznesmenin oğludur", "Türkmənbaşı velosiped sürüb mahnı oxudu, sonra Qaraqum səhrasındakı Cəhənnəm darvazasına baş çəkdi", "Rus hərbi aşbazları tankın mühərriki üstündə qayğanaq bişirdilər" və saire. Bunlar, necə deyərlər, biz tərəflərdir. Özüm qloballaşmanı-zadı nəzərə alıb tərəfimizi bir az geniş götürdüm. Hələ istəsən bura Batumidə gürcünü bıçaqlayan ərəb turisti, Amerikadakı de-fakto müharibəni də əlavə eləmək olar. (Məncə, Amerika da elə "bizim tərəfdir". Nə qədər Marsa uçsalar da, bu ölkə, məncə, cahilliyin zirvəsidir. Bir gündə 3 şəhərində kütləvi atışma, qırğın törədilir, ancaq silah mafiyasına güc gəlib silah satışını aradan qaldıra bilmirlər. Vəhşilik deyil, nədir?) Fransız isə taxtanın üstünə çıxıb uçur. Nağıllardakı uçan xalı kimi.

Rey Bredberi-nin bir qısa hekayəsi var, "Göydəki adam" adlanır. Hekayədə eramızdan öncə Çin imperatoru bir gün sarayının bağçasında gəzərkən uçan adam görür. Onu yanına çağırır, kağız və sairədən düzəltdiyi qanadlarını yandırır, özünü isə edam etdirir. Bu məntiqlə ki, bəlkə bir gün başqası da belə qurğu düzəldib havadan Çin səddinin üstünə böyük daşlar yağdırsa, biz nə edərik?

Hesab edirəm Şərqin durumuna, xüsusən müsəlman dünyasının indiki halına çox uyğun əhvalatdır.




# Paşinyan məxfi sənəd açıqladı: Ermənistan dərin bataqlıqda...

## Düşmən ölkə apardığı işğalçı siyasətin altında qalıb; baş nazirdən ilginc etiraf; Bakının, Brüsselin və Vaşinqtonun ismarışları indi İrəvana çatır...

**Ermənistanın baş naziri Nikol Paşinyan 15 aydır haqqında danışdığı islahatlardan ictimai fikri yayındırmaq üçün az qala, hər gün təzə bir mövzu tapır. İki gün öncə o, facebook-da etdiyi canlı yayım zamanı isə maraqlı bir açıqlama verib. Bu dəfə o, eks-prezident Serj Sərkisyan dönəminə aid məxfi sənəd haqqında danışıb.**

Məlumata görə, Paşinyan sənədlə bir neçə ay əvvəl tanış olduğunu, amma məzuniyyəti zamanı onu detallı şəkildə yenidən oxuduğunu bildirib (məzuniyyət avqustun 2-də bitib). O, sənəddə məxfiliyin nədən ibarət olduğunu söyləməsə də, onun mahiyyəti barədə bəzi ifadələr işlədib. Sitat: "Sənədin vacibliyi ondadır ki, o, bizə ölkədəki real vəziyyət haqqında dolğun məlumat verir. Aydın olur ki, ölkədəki problemləri bir il ərzində həll etmək mümkün deyil. Sənəddə Ermənistanın institusional iflic vəziyyətində olduğu bildirilir".

Siyasi analitiklər də onun bu sitatına dərhal diqqət çəkiblər.

*****

"Paşinyan Ermənistanda heç bir sirr qoymadı. Serj Sərkisyanın hakimiyyəti dövründə 2016-cı ilin aprel savaşı haqqında danışmırdılar, bu mövzuya qeyri-rəsmi qadağa var idi. Nikol Paşinyan Ermənistanda inqilab yolu ilə hakimiyyətə gələr-gəlməz, ordudakı korrupsiyadan danışmağa başladı. Paşinyan bunun ardınca parlamentdə aprel savaşını tədqiq etmək məqsədilə komissiyanın yaradılmasını təklif etdi".

Bu sözləri politoloq Elxan Şahinoğlu Ermənistan baş nazirinin məxfi sənəd barədə söylədiklərini şərh edərkən deyib. Onun sözlərinə görə, əslində N. Paşinyan həmin təklifi ilə "4 günlük" aprel savaşının Ermənistan üçün ağır nəticələrinə işarə edib: "Daha sonra Paşinyana yaxın deputatlardan biri aprel savaşında Ermənistanın itkilərinin 500-ü aşdığını vurğuladı. Halbuki itkilər mövzusu da Ermənistanda tabu idi. Nikol Paşinyan növbəti sirrin üstünü açıb. Sən demə, 2014-cü ildə Ermənistan hakimiyyəti üçün hazırlanan gizli hesabatda ölkədəki dövlət strukturlarının faciəvi durumda olduğu bildirilirmiş".

**Politoloq qeyd edib ki, əgər Serj Sərkisyan bu hesabatı gizli saxlayırdısa, Nikol Paşinyan gizliliyə ehtiyac duymayıb və yazdığı statusda məsələnin üstünü bu şəkildə açıb:** "Həmin hesabatı oxuyanda bu nəticəyə gəlirsən ki, Ermənistanda heç bir problemi həll etmək mümkün deyil. Dövlət strukturları iflic vəziyyətdədir və bunda keçmiş hakimiyyət günahkardır. Dövlətimiz uğursuzluğa düçar olub".

**Elxan Şahinoğlu vurğulayıb ki, Paşinyan ölkədə insanların problemlərini həll edəcək strukturların qalmadığını etiraf edib:** "Paşinyanın fikirlərini tamamlayan bir başqa acı etirafı da diqqəti çəkir: "Hakimiyyətə gələndə elə bilirdim ki, heç olmasa işləyə bilən qurumlarımız var. Ancaq işin gedişatında anladım ki, yanılmışam, durum acınacaqlıdır. Biz dövlət institutlarını sıfırdan yaratmağa başlamalıyıq".

Bəs erməni baş nazir bu hesabatı niyə indi faş edir?

**Politoloqa görə, Nikol Paşinyan keçmiş hakimiyyətin yarıtmaz fəaliyyətindən irəli gələrək vəziyyətin acınacaqlı olduğunu ona görə indi cəmiyyətə anladır ki, vətəndaşlar ondan yaxın zamanda problemlərin həllini gözləməsinlər:** "Paşinyan onu da izah etməyə çalışır ki, əlindəki resursları islahatları sürətləndirməyə və müsbət nəticə əldə etməyə imkan vermir".

**Ekspertin fikrincə, N.Paşinyanın bu etirafları bizə müəyyən ipucları verir:** "O da bundan ibarətdir ki, Ermənistanın dövlət strukturlarının acınacaqlı durumuna baxmayaraq, ermənilərin öz düşüncələrində yeganə "uğurları" Azərbaycan torpaqlarını işğal altında saxlamalarıdır. Ancaq bu da onlara baha başa gəlir, işğal həm böyük maliyyə, həm də insan itkisi tələb edir. Elə Paşinyanın dili ilə desək, Ermənistan dövlətinin uğursuzluğa düçar olmasının başlıca səbəbi işğalla əlaqəlidir. İndi bizdən tələb olunan odur ki, bunu Paşinyana daha geniş şəkildə anladaq. Bu izahın siyasi, iqtisadi və hərbi yolları var".

*****

Məsələ də elə Ermənistan rəhbərliyinin ölkənin hansı səbəbdən dərin bataqlığa yuvarlandığını anlaması ilə bağlıdır. Belə bir dərk baş verəcəksə, "Biz on illərdir həll olunmamış Qarabağ məsələsinə görə iflic vəziyyətiyik" etirafı ən yüksək səviyyədə ediləcəksə, onda bəlkə Ermənistanın hansısa nicat yoluna çıxa bilməsindən danışmaq mümkün olsun.

Yəni bütün dərdlərin müalicəsi düzgün diaqnozun qoyulmasına birbaşa bağlıdır. Ermənistanın "inqilabçı və legitim" rəhbərliyi bu mənada sələflərindən fərqli olaraq, ölkənin düşdüyü acınacaqlı vəziyyətin əsas səbəbini öz xalqına açıq deməyi bacarmalıdır. Paşinyan bundan ötrü özündə iradəni tapa biləckmi?

Hər halda, ötən ay o, erməni xalqını illərdir Qarabağ müharibəsində mifik qələbəyə inandırmağa çalışan Sərkisyan-Köçəryan cütlüyündən fərqli olaraq, ilk erməni rəhbəri kimi etiraf etdi ki, Qarabağ müharibəsi hələ bitməyib. Bu, yaxşı etirafdır, ancaq erməni xalqının dərdinə dərman olmaq üçün yetərli deyil. Yəni etirafın davamı gəlməlidir. Həm də o səbəbə ki, bu etirafdan Ermənistanın dünya ilə, Qərblə, özəlliklə ABŞ-la, Avropa ilə normal münasibətləri birbaşa asılıdır.

Yeri gəlmişkən, Paşinyanın hakimiyyətdə olduğu 15 ayda ABŞ, Avropa Birliyi tərəfindən ən yüksək səviyyədə, dəfələrlə çağırışlar səslənib ki, Ermənistan özünün inkişafına və milli təhlükəsizliyinə ilk növbədə qonşu Azərbaycan və Türkiyə ilə anlaşıb dil tapmaqla, bununla da Rusiyanın təsir zonasından uzaqlaşmaqla nail ola bilər. Rəsmi Bakı da dəfələrlə Dağlıq Qarabağ ermənilərinə ən yüksək muxtariyyət statusu verməyə hazır olduğunu bəyan edib və bildirib ki, Ermənistanın "daşı ətəyindən tökməsi", işğala son qoyması kifayətdir ki, o, ağır blokada və vassal vəziyyətindən qurtulsun, Azərbaycan və Türkiyənin dəstəyi hesabına əsl iqtisadi inkişaf və inteqrasiya yoluna çıxsın, əhalisi on illərdir sürən üzücü və miskin həyatdan, aclıq təhlükəsi və kütləvi köçdən xilas olsun.

Deyəsən, Bakının, Brüsselin və Vaşinqtonun ismarışları indi-indi İrəvana çatır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# Qarabağ separatçılarının Avstraliya təxribatı - kontur-tədbirlərimiz nə olmalıdır?

## **Qafar Çaxmaqlı:** “Hələ ki bizim diaspor və lobbiçilik təcrübəmiz azdır, ermənilərin isə...”

## **Elxan Şahinoğlu:** “Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri sərhədlərimizi aşmalıdır”

**“Avstraliyanın erməni diaspor təşkilatlarının ölkəmizin işğal edilmiş ərazilərindəki separatçı rejimi təşviq edən fəaliyyəti, eləcə də Avstraliyanın erməni mənşəli rəsmisinin bəyanatları ilə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) ciddi şəkildə məşğul olaraq bir sıra tədbirlər görüb”.**





Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Avstraliyanın bəzi rəsmilərinin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin “nümayəndələri” ilə görüşməsinə dair media mənsublarının sorğusuna cavab olaraq bildirib. Onun sözlərinə görə, ölkəmizin Avstraliya İttifaqındakı müvəqqəti işlər vəkili tərəfindən Avstraliya Xarici İşlər Nazirliyinə etiraz notası təqdim edilib. “Eləcə də Avstraliyanın ölkəmizdəki səfiri ilə Xarici İşlər Nazirliyində görüş keçirilərək rəsmi etirazımız Avstraliya səfirinin diqqətinə çatdırılıb. Buna cavab olaraq, Avstraliya XİN-də Azərbaycanın müvəqqəti işlər vəkili ilə keçirilmiş görüş zamanı Avstraliya Federal Hökumətinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı mövqeyinin dəyişməz olduğu bir daha vurğulanıb. Qarşı tərəf qondarma rejimin ”nümayəndələri"nin ermənilər tərəfindən təqdim edilən statusunun rəsmi Kanberra tərəfindən tanınmadığını və onların bu səfərinin şəxsi xarakter daşıdığını söyləyib" - Abdullayeva deyib.

**XİN sözçüsü nazir Elmar Məmmədyarovun avstraliyalı həmkarı Maris Peynə rəsmi məktub ünvanladığını da deyib. O, Avstraliyanın Rayd şəhər Şurasında Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş Xankəndi şəhəri ilə “dostluq əlaqələrinin yaradılması”na dair sənədin qəbul edilməsi ilə bağlı deyib ki, Rayd Avstraliyanın ən çox erməni əsilli vətəndaşının cəmləşdiyi şəhərdir:** “Təsadüfi deyil ki, cəmi 2 nəfər tərəfindən qəbul edilmiş sözügedən sənədin layihəsi Rayd Şəhər Şurasının məhz erməni əsilli üzvü Sarkis Yedelyan (Sarkis Yedelian) tərəfindən irəli sürülüb və şəhərin meri Cerom Laksal tərəfindən dəstəklənib”.

**L.Abdullayeva xatırladıb ki, Avstraliya Federal Hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir:** “Avstraliyanın inzibati ərazi vahidlərinin yerli icra hakimiyyəti və ya qanunverici orqanları tərəfindən ermənilərin lobbiçilik səyləri əsasında qəbul olunan bu kimi sənədlərə gəldikdə isə vurğulamaq istərdim ki, belə sənədlər hüquqi nöqteyi-nəzərdən heç bir əhəmiyyət kəsb etmir və yalnız müəyyən dairələrin və ya lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır”.

Qeyd edək ki, son aylar ərzində Ermənistanı və Qarabağ separatçılarını məyus edən bir sıra hadisələrin şahidi olduq. Belə ki, Fransa məhkəmələri ölkənin bəzi şəhərləri ilə işğal altındakı Azərbaycan ərazilərində mövcud olan separatçıların “qardaşlaşma” barədə “saziş”lərini ləğv etdi. Bunun ardınca ABŞ separatçı bölgəyə yardımları azaltmağa qərar verdi. Həmçinin üçüncü həmsədr ölkədə - Rusiyada erməniləri narahat edən proseslər cərəyan etməkdədir. Belə ki, Rusiyanın Soçi şəhərindəki hava limanında çalışan 100-dən çox erməni işdən qovulub və bu hadisə Ermənistanda şok effekti yaradıb. Belə bir durumda Avstraliya hökumətinin öz vətəndaşlarına Qarabağ separatçıları ilə əlaqələr qurmağa imkan tanıması haqlı suallar doğurur. Düzdür, Avstraliya azərbaycanlılar üçün cəlbedici ölkə deyil və buradakı soydaşlarımızın sayı az qala barmaq hesabı qədərdir. Amma türk diasporu bu ölkədə də kifayət qədər güclüdür. Doğrudur, ölkənin ən böyük şəhəri, 5 milyonluq Sidney daxil olmaqla, Avstraliyanın ayrı-ayrı bölgələrində ermənilər yaşayır və imkan düşən kimi, təlimatlara uyğun addımlar atırlar. Yeri gəlmişkən, keçən il işğal altındakı Kəlbəcər rayon mərkəzi yaxınlığında 50 evin tikintisi barədə məlumat yayılmışdı. Yeni şəhərciyin avstraliyalı ermənilərin dəstəyi ilə tikiləcəyindən adının “Sidney” qoyulması təklif edilirdi. Yəni ermənilər dünyanın hansı nöqtəsində, hətta başqa materikdə olsalar belə, Qarabağı unutmur və onun ilhaqı üçün var gücləri ilə çalışırlar.

**“Ermənilər həmişə o yerə gedirlər ki, ya orada onların güclü dayaqları olsun, ya da ora xam yer olsun. Yaxud oradakı əhalinin ermənilərlə, türklərlə bağlı gerçəklərdən xəbərləri olmasın və yaxud az xəbərdar olsun. Avstraliyada ermənilərin diasporu mövcuddur, yüz ildir ki, ”Ararat" adlı qəzetləri çıxır, ciddi dərnəkləri, fondları var, oranın xalqı bizim bölgədə baş verənlərə nə qədər biganədirsə, deməli, ermənilər də yetərincə iş apara biliblər. Odur ki, indi əleyhimizə fəaliyyətlərlə qarşı-qarşıya qalırıq".**

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi. Ekspertin sözlərinə görə, birdəfəlik bilməliyik ki, ermənilər harada imkan düşsə, bizə zərbə vurmağa çalışırlar:** “Bunun qarşısını almaq imkanlar haqda düşünməli və bütün gücümüzü səfərbər etməliyik”.

**Q.Çaxmaqlı da təsdiqlədi ki, Avstraliyada kifayət qədər güclü türk diasporu var, onlar Azərbaycan diasporu ilə əlaqəli çalışırlar:** “Xocalı soyqırımı ilə bağlı birgə keçirilən tədbirlərdə fəal olublar. Görünür, birgə fəaliyyətlər yetərli olmur. Bu işə dövlət müdaxilə etməlidir. Çünki hələ bizim diaspor və lobbiçilik təcrübəmiz azdır, ermənilərin isə burada fəaliyyətlərinin tarixi yüz illərlə ölçülür. Ermənilərin uzun əsrlər dövləti olmayıb. Onu kilsə əvəz edib və ənənələri var. Hər halda, bunları da nəzərə alaraq addımlar atmaq lazımdır”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə Dağlıq Qarabağın “xarici işlər naziri” Masis Mailyanın Avstraliyada qəbul olunmasına diqqət çəkdi:** “O, iyulun 30-da Avstraliya parlamentində xarici əlaqələr komitəsinin sədri Erik Abetslə görüşüb. Sən demə, həmin komitənin sədri ”erməni soyqırımının" tanınması istiqamətində “böyük fəaliyyət” göstərib. Buna görə də Masis Mailyan görüşdə ona minnətdarlığını bildirib. Görüşdə “Dağlıq Qarabağ Respublikasının Avstraliyadakı” təmsilçisi kimi təqdim edilən Kaylar Mikaelyan da iştirak edib. Bundan sonra separatçıların təmsilçiləri ilə Avstraliya parlamentinin digər üzvləri və komitə sədrləri də görüşüblər. Dağlıq Qarabağın azərbaycanlı icmasına yeni və gənc sədr seçiləndə ümidlənmişdim ki, yenisi fəaliyyətində köhnəsindən fərqlənəcək. Əlbəttə, icma rəhbərinin ingilis dilində müxtəlif videogörüntülər yayınlaması yaradıcı yanaşmadır, səfirlərlə görüşlər də vacibdir. Ancaq bu, azdır. Azərbaycanın sərhədlərini aşmaq lazımdır".

**E.Şahinoğluna görə, elə separatçıların ardından Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbər heyətinin Avstraliyaya səfərini və oradakı parlamentdə görüşlərini təşkil etmək lazımdır ki, bu ölkədə əsl həqiqətləri bilsinlər:** “Azərbaycanın Avstraliyadakı səfirliyi separatçıların bu ölkənin parlamentindəki görüşlərinə mane olmaqda gücsüzdürsə, heç olmazsa Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbərinin və üzvlərinin görüşlərini təşkil etməlidir”.

❑ **E.PAŞASOY,**
**“Yenì Müsavat”**

# Ermənistan niyə Xəzər İqtisadi Forumuna qatılır?

**“Rusiyanın böyük əhəmiyyət verdiyi birinci Xəzər İqtisadi Forumu region ölkələri arasında bir çox sahələrdə əməkdaşlığa təkan verəcək”.**



Sergey Lavrov

“Report” xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov “Türkmənistanın xarici siyasəti və diplomatiyası” jurnalına müsahibəsində bildirib.

“Hökumətlər, aidiyyəti iqtisadi qurumlar, Xəzər regionunda çalışmaqda maraqlı olan işgüzar dairələr arasında birbaşa təmaslar üçün ixtisaslı meydanın qurulması çoxdandır yetişib. Bu mənada mütəmadi keçiriləcək Xəzər İqtisadi Forumuna dair Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü vaxtında irəli sürülüb”, - XİN başçısı deyib.

O, həmin forumun ticarət, sərmayə, turizm kimi sahələrdə əməkdaşlığa əlavə təkan verəcəyini, nəticədə Xəzərin dünyanın ən iri nəqliyyat və rabitə qovşaqlarından birinə çevriləcəyini söyləyib.

Qeyd edək ki, birinci Xəzər İqtisadi Forumu avqustun 11-12-də Türkmənbaşı şəhərindəki “Avaza” milli turizm zonasında keçiriləcək.

Yeri gəlmişkən, virtualaz.org xatırladır ki, Türkmənistanda keçiriləcək Birinci Xəzər İqtisadi Forumunda Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın başçılığı ilə nümayəndə heyəti də iştirak edəcək.

# Rusiya İran XİN başçısına qarşı sanksiyanı pislədi

**“Rusiya Xarici İşlər Nazirliyi İranın xarici siyasət idarəsinin başçısı Məhəmmədcavad Zərifə qarşı ABŞ hökuməti tərəfindən tətbiq edilən sanksiyaları qınayır”.**



Məhəmmədcavad Zərif

TASS xəbər verir ki, bunu keçirdiyi brifinqdə Rusiya xarici işlər nazirinin müavini Sergey Riyabkov deyib.

O bildirib ki, müasir beynəlxalq münasibətlərdə bu cür misli görünməyən təzyiq üsullarına yer olmamalıdır.

Virtualaz.org xatırladır ki, bir neçə gün əvvəl ABŞ hökuməti İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifə sanksiya tətbiq edib. Zərif xüsusi kateqoriyalı şəxslər siyahısına daxil edilib.

# Zelenski Türkiyəyə gedir

**Ukrayna prezidenti Vladimir Zelenski avqustun 7-8-də Türkiyəyə işgüzar səfər edəcək.**



Vladimir Zelenski

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bu barədə Ukrayna prezidentinin saytı xəbər yayıb.

Bildirilir ki, Ankaraya səfər çərçivəsində Zelenski Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla ikitərəfli münasibətlərin inkişafına dair müzakirələr aparacaq.

Zelenski həmçinin Ukrayna və Krım tatarları cəmiyyətində görüş keçirəcək.

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# “Ququ” ləqəbli kriminal “avtoritet” intihar etdi

**Cəlilabad rayonunda intihar hadisəsi baş verib. “Report” xəbər verir ki, intihar hadisəsi şəhərin Təbriz küçəsində qeydə alınıb. Belə ki, Cəlilabad şəhər sakini, Qasımov Sahib Məzahir oğlu intihar edib. İlkin məlumata görə, onun qəbul etdiyi yüksək dozalı narkotik maddənin təsirindən intihar etdiyi bildirilir.**

Qeyd edək ki, S.Qasımov Cəlilabad rayonunda “Ququ” ləqəbli kriminal “avtoritet” kimi tanınır.

# Mal oğurlayan dəstə tutuldu



**Cəlilabad rayonunun Günəşli kənd sakini Vaqif Həsənov polis şöbəsinə müraciət edərək ona məxsus 6 baş camışın kəndin “Mahmudçala” adlanan ərazisində naməlum şəxslər tərəfindən oğurlandığını bildirib. Cinayəti törətməkdə şübhəli bilinən Biləsuvar rayon sakinləri Fədav Ağayev və Şəmistan Nəhmətov tutulublar. Araşdırma zamanı oğurlanan iribuynuzlu mal-qaranın dəstə üzvləri tərəfindən Cəlilabad rayon sakini Əlixas Hüseynova məxsus yük maşını ilə Bərdə rayonunda yerləşən mal bazarına aparılıb satıldığı məlum olub. Əməliyyat zamanı Ə.Hüseynov da tutulub və saxlanılan şəxslər etdikləri cinayəti etiraf ediblər. Əraflarında keçirilən əlavə əməliyyat tədbirləri zamanı onların müxtəlif vaxtlarda Biləsuvar rayon sakini Balaşükür Mikayılova məxsus 11 baş camış, Cəfərxanlı kənd sakini Əsədxan Həşimovun dəyəri 14000 manat olan 5 baş inəyini, Şükürlü kənd sakini Nurəddin Sadıqova məxsus 9 baş iribuynuzlu heyvanı və İbadət Nuriyevin 7 baş inəyini oğurladıqları da məlum olub.**

Faktlarla bağlı Cəlilabad Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar və əməliyyat tədbirləri davam etdirilir.

# Bakıda narkotik alverçilərinə qarşı əməliyyat

**Binəqədi Rayon Polis İdarəsi və 43-cü Polis Bölməsi əməkdaşları tərəfindən Binəqədi qəsəbəsinin müxtəlif nöqtələrində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı birgə əməliyyat tədbiri həyata keçirilib.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən “Report”a verilən məlumata görə, kompleks əməliyyat zamanı narkotik vasitələrin satışı ilə məşğul olan İmişli rayon sakini Fərahim Əzizov, paytaxt sakinləri Elçin Soltanov, Rəşaiq Şeydayev və Qüdrət İslamov saxlanılıblar. Onların üzərlərinə baxış zamanı şəxsi istehlak miqdarından artıq çəkidə narkotik vasitə olan heroin aşkar olunaraq götürülüb.

Saxlanılan şəxslər ifadələrində narkotik vasitələrin dövriyyəsi ilə məşğul olduqlarını etiraf ediblər.

Faktla bağlı 43-cü Polis Bölməsində toplanan materiallar Binəqədi Rayon Polis İdarəsinin İstintaq şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# Evində ölü tapıldı

**Bakıda 69 yaşlı qadın evində ölü tapılıb."Qafqazinfo" xəbər verir ki, FHN-in “112” qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Sabunçu rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. Hadisə yerinə cəlb olunan Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilə daxil olaraq orada aşkarlanan 1950-ci il təvəllüdlü Mayilova Sədəqəd Xanbala qızının meyitini aidiyyəti üzrə təhvil veriblər.**





# Bakıda “özümü öldürəcəm” yenə dəbdə - psixoloqlardan ilginc xəbərdarlıq

**Bir vaxtlar “Koroğlu” metrosunun yaxınlığındakı asma körpü “intihar körpüsü” adlandırılırdı. Bu ona görə beləydi ki, həmin qovşaqdan özünü atmaq cəhdləri bir tendensiyaya çevrilmişdi.**

İntihar etmək istəyən körpüyə çıxırdı. Sonra məftillərlə əhatələndi, asayiş üçün mühafizə polisi yerləşdirildi ki, canına qəsdetmə hallarının qarşısı alınsın. Onların əksəriyyəti ölümün pəncəsindən xilas edilirdi. Məlum olur ki, əksəriyyəti üzləşdiyi haqsızlığa etiraz olaraq özünü öldürməyə qalxıb.

Əslində onların elədikləri intihara cəhddən daha çox sosial etiraza, bir aksiyaya bənzəyirdi. Bəziləri deputat Qənirə Paşayevanı hadisə yerinə səsləyirdi ki, onun sözünü eşidib yuxarı orqanlara çatdırsın.

Son günlərdə Bakıda yenə “özümü öldürəcəm” halları müşahidə olunur. Avqustun 1-də 21 yaşlı gənc özünü dənizə atıb.

Hadisə şahidlərinin sözlərinə görə, onun meyiti ərazidə polis əməkdaşları tərəfindən sahilə çıxarılıb.

Avqustun 3-də 23-26 yaşlı Murad adlı şəxs metronun “20 Yanvar” stansiyasının yaxınlığındakı körpüdən özünü yerə atıb. Həkimlərin verdiyi məlumata görə, onun vəziyyəti orta ağırdır.

Aeroport yolunda isə yüksək sürətlə hərəkətdə olan BMW markalı avtomobilin ön oturacağında sərnişin xanım qapını açaraq özünü yola atıb. Sürücü isə avtomobili saxlayaraq rahat şəkildə maşından düşür və qızı qucağına alaraq avtomobilə qoyur, daha sonra yoluna davam edir.

Avqustun 3-də Əliyeva Tamara Vaqif qızı özünü 16 mərtəbəli yaşayış binasının 6-cı mərtəbəsindən atıb. O, ağır xəsarətlər alıb və ətrafdakıların köməkliyi ilə 1 saylı Kliniki Tibbi Mərkəzə çatdırılıb.

Ayın 4-nə də diqqət edək: Bakının 3-cü mikrorayon dairəsi üzərindəki körpüdə kimliyi məlum olmayan şəxs əlindəki bıçaqla özünə xəsarət yetirmək istəyib.

İnsident baş verən əraziyə FHN-in xüsusi xilasetmə qrupu cəlb olunub. Hadisə səbəbindən sözügedən ərazidə nəqliyyatın hərəkətində sıxlıq yaranıb.

Avqustun 5-də isə Xaçmazın Ləman kənd sakini, 77 yaşlı Hacıyev Zakir Xəlil oğlu səhər saatlarında yaşadığı evdə bıçaqla bədəninin müxtəlif nahiyələrini, o cümlədən əlini kəsib. O, Xaçmaz Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Hazırda vəziyyəti yaxşıdır.

Qeyd etmək lazımdır ki, son dövrlərdə intiharların daha çox sosial problemlərdən yox, şəxsi həyatda olan sıxıntılardan baş verdiyi müşahidə edilir. Nakam məhəbbətlə üzləşən gənclər, həyat yoldaşı ilə yola getməyənlər, dərin əzablar və depressiyada olanlar intihara əl atır.

Necə ki, o dövrdə Hötenin “Gənc Verterin iztirabları” romanını oxuyan hər üç gəncdən ikisi intihara əl atırdı.

Onlar eşqi uğursuzluğa düçar olmuş oxucular idi ki, kitab onları intihara təhrikləyirdi. Və sonra romanın satışı qadağan edilmişdi.



**Azad İsazadə:** “Nümayiş intiharı var, onun içində protest niyyəti dayanır”

**Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin direktoru, professor Fuad İsmayılov oxu.az-a deyib ki, intihar risklərinin artması baxımından avqust təhlükəli ay hesab edilir.**

“Niyə məhz avqustun olduğunu demək çətindir - bu, mütəxəssislərin müşahidələrinin nəticələridir. İntiharlar üçün ən təhlükəli vaxt səhər saatlarıdır, ən təhlükəli gün isə cümədir”, - psixiatr bildirib. Onun sözlərinə görə, Azərbaycan intiharların sayına görə digər ölkələrdən geri qalır. 2015-2016-cı illərdə son iki illə müqayisədə daha çox intihar törədilib: “Həmin vaxt maliyyə böhranı, banka olan borclar və totalizatorlar (idman mərc oyunları) intiharların artmasına güclü təsir göstərib”.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, Azərbaycanda hər 100 min nəfərə 4,3 intihar düşür. Bu göstərici Kanadada 15,1, ABŞ-da 21,1, Rusiyada 48,3, Türkiyədə 11,3, Fransada 17,9, İsveçdə isə 15,8-dir.

**Psixoloq Azad İsazadənin “Yeni Müsavat”a bildirdiyinə görə, nümayiş intiharı deyilən özünə qəsd növü var:** “Onun içində protest bəndi var. Yeni nümayiş ölümlə nəticələnmir və konkret bir səbəbə görə canına qıymaq istəyir. Bununla kimsə intihara meylini göstərməyə can atır. Amma görürsə cəhdin nəticəsi olmur, o zaman nümayiş intiharı reallığa çevrilir və faciə baş verir. Lakin elmi ədəbiyyatda avqustun intiharlar üçün riskli ay olmasının xüsusi izahı yoxdur. Müxtəlif təqdimatlar, şərhlər ola bilər”.

**A.İsazadə intiharı depressiyanın zirvəsi sayır:** “İnsanlar daha çox payızda ovqatda dəyişiklik hiss edirlər və intiharlar bu dövrə təsadüf olur. Niyə avqustda intihar çox olur, bunu demək çətindir. Ola bilsin ki, bu cür adamlar yayı intizarla gözləyir, düşünür ki, yay gələcək və planlar olacaq. Amma avqust yayın sonudur və həmin insanlar fikirləşir ki, yenə payız yaxınlaşır, heç nə dəyişmədi və bu zaman avqust sonuncu ay təəssüratı yaradır. Belə bir nəzəriyyə var”.

**Psixoloq şəxsi həyatla əlaqədar intiharların həmişə eyni səviyyədə qaldığını açıqladı:** “Rəqəm eynidir. Amma cəmiyyətdə maddi problemlər çoxalanda intiharın üstünə biri də gəlir.

Onda elə görünür ki, intihar çoxalıb. Məsələn, kredit intiharı artmışdı. Bu dalğa endi. Amma şəxsi problemlər həmişə olur deyə bu səbəbdən intiharların statistikası aşağı düşmür, eyni səviyyədədir".

**İntiharların artmasında medianın rolunun olması ilə razılaşmayan A.İsazadə hesab edir ki, mətbuat intiharın formasında təbliğatçı ola bilər:** “Sovet vaxtı da intihar var idi, informasiya az idi. 70-ci illərdə Moskvada intiharla məşğul olan mərkəz yaradılmışdı. Həm müalicə edilirdi, həm də dövlətə intiharlarla bağlı məsləhət verilirdi. Medianın rolu intiharın formasında var. Məsələn, "Koroğlu" körpüsündən biri özünü atdı, başqası mediadan eşitdi və o da körpüdən özünü atmağa cəhd elədi. Bakıda körpü çoxdur, amma konkret bu körpüdən istifadə etdilər. Səddamın edamı da mediada veriləndən sonra o dövrdə özünü asma halları həm Şərqdə, həm Azərbaycanda çoxaldı. Sadəcə, kimsə intihar etmək fikri ilə yaşayır, amma bilmir ki, hansı yola əl atsın. Bu mənada ədəbiyyat və media təsir edir".

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Qarabağ üçün "B planı": Rusiya "dobro" versə...

## Ermənistan rəhbərliyinin müharibəni yaxınlaşdıran təxribatçı oyunları davam edir; politoloq: "Azərbaycan ordusunun növbəti zərbəsi çox ciddi strateji ərazilərin azad olunması ilə nəticələnə bilər..."

**Dünən - avqustun 5-də işğal altındakı Xankəndində Ermənistanın baş naziri Nikol Paşinyanın da qatıldığı mitinq planlaşdırılırdı. Bu günə isə Qarabağda "Ümumerməni oyunları" adlı növbəti şounun açılışı gözlənilir. Hədəf əlbəttə ki, separatçı rejimin təbliği və bu ərazilərin köklü sahibinin guya ermənilər olduğunu dünyaya nümayiş etdirməkdir. Bu məqsədlə dünyanın dörd bir yanından ermənilər və ermənipərəst qonaqlar dəvət edilib. Məlumatlara görə, Türkiyə, Gürcüstan və İran öz erməni əsilli vətəndaşlarına bu şouya qatılmaq üçün Qarabağa getmələrini yasaq edib.**




"Ümumerməni oyunları" şübhə yox ki, ondan əvvəlki analoji tədbirlər və idman "çempionatları" kimi, Azərbaycan dövlətinə qarşı düşünülmüş açıq təxribatdır. Erməni tərəfinin sülh danışıqlarına vurduğu daha bir zərbədir. Ümumiyyətlə, rəsmi İrəvanın Bakı ilə böyük sülh sazişində maraqlı olmadığının daha bir təzahürüdür. O sırada Nikol Paşinyanın növbəti dəfə Qarabağa oğrun yolla gələrək, orada ənənəvi ritorikasına davam eləməsi Azərbaycana hərəkətə keçməsi üçün siqnal sayılmalıdır.

*****

**"Gələn ilin sentyabrında qondarma "dqr"də "seçkilər" keçiriləcək. Ermənistanın baş naziri Nikol Paşinyanın əsas məqsədi odur ki, bu seçkilərdə ona simpatiya ilə yanaşan xadimlər qalib gəlsin". Bu sözləri politoloq İlqar Vəlizadə deyib. O bildirib ki, Paşinyanın avqustun 5-də Xankəndində keçirdiyi mitinqdə də əsas məqsəd məhz bundan ibarətdir:** "Paşinyan çalışır ki, gələn il qondarma rejimdə keçirilən "seçkilərdə" öz namizədinin qələbəsini təmin etsin. Çox güman ki, onun çıxışı yerli qondarma separatçı qurumun elektoratına ünvanlanacaq. Əlbəttə ki, bu, acınacaqlı haldır. Paşinyan Azərbaycanın işğal olunmuş torpaqlarına səfər edir və orada siyasi fəallıq göstərir. Bu səfərlər təxribatçı xarakter daşıyır. Bu, onu göstərir ki, Ermənistan həmin ərazilərdə hökmranlıq edir və oranı boşaltmaq niyyətində deyil. Paşinyan Azərbaycanla danışıqlar aparmaqdan boyun qaçırır. Təəssüf ki, bu cür səfərlər xarici müşahidəçilər, ATƏT-in Minsk Qrupu tərəfindən lazımi siyasi qiymət almır. Siyasi qiymət almadığı üçün də belə səfərlər, siyasi oyunlar sürətlə davam etdirilir".

**Politoloq Natiq Miri isə hesab edir ki, Nikol Paşinyan iqtidarı təmas xəttində hərbi proseslərə nəzarət edə bilmir (teleqraf.com):** "Bundan əlavə, işğal olunmuş Azərbaycan ərazilərində Robert Köçəryan və Serj Sərkisyanın qurub yaratdığı və rəhbərlik etdiyi hərbi xuntaya aid generalitet Paşinyan hökumətini saymır. Bu generalitet Paşinyan hökumətini devirmək üçün hərbi təxribatlar törətməklə yeni müharibəyə rəvac verə və nəticədə Ermənistan ordusu Azərbaycan ordusundan ciddi zərbə ala bilər. Bu zərbə təkcə canlı qüvvə və hərbi texnika itkisi ilə deyil, həm də çox ciddi strateji ərazilərin azad olunması ilə də nəticələnə bilər".

**Politoloq əlavə edib ki, Ermənistan ictimai rəyində hələ də Qarabağ münaqişəsinin həlli ilə bağlı hansısa dəyişiklik mövcud deyil:** "Erməni ictimai rəyi hələ də Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılmasına heç bir vəchlə razılıq vermir. Ona görə də əgər Köçəryan-Sərkisyan rejiminə xidmət edən hərbi xunta Azərbaycanın işğal olunmuş ərazilərində bu cür hərbi təxribatlar yaradarsa, - düşünürəm ki, son hərbi insidentlərin də arxasında bu istək və niyyətlər dayanır, - bu, Paşinyan üçün həqiqətən də çox xoşagəlməz durum yarada bilər"

*****

Təbii ki, rəsmi Bakı müharibə ssenarisini həmişə "B variantı" kimi ehtiyatında saxlayır. Çünki Azərbaycan Rusiya faktorunu nəzərə almaq zorundadır. Bu faktor indi xüsusilə separatçı rejimə münasibətdə güclüdür. Bəllidir ki, həm separatçı-kriminal qurumun indiki başçısı Bako Saakyan, həm onun sələfləri və bütövlükdə eks-prezident Robert Köçəryan başda olmaqla Qarabağ klanı Moskvaya bağlıdır. Bu mənada Nikol Paşinyanın Dağlıq Qarabağda özünə sadiq şəxsləri Moskvanın iradəsi ziddinə necə "hakimiyyətə" gətirəcəyi çox maraqlıdır. Odur ki, Azərbaycan tərəfi prosesləri diqqətli izləyir. Çünki nəzəri cəhətdən istisna deyil ki, Moskva qərbpərəst Paşinyana və tərəfdarlarına zərbə vurmaq üçün Azərbaycana hansısa məqamda öz torpaqlarının bir qismini azad eləmək üçün "yaşıl işıq" yandırsın. Söhbət ən azından, mini-aprel savaşından gedir. Çünki Rusiya genişmiqyaslı və uzunmüddətli savaşda maraqlı görünmür.

**"Rusiyaya heç bir halda Qarabağda eskalasiya sərfəli deyil". Bunu tanınmış rusiyalı politoloq Fyodor Lukyanov deyib (Axar.az). Onun sözlərinə görə, Moskva istənilən vasitə ilə bu ssenarinin gerçəkləşməsinə imkan verməyəcək:** "Rusiya bunu çox diqqətlə izləyir. Mən düşünürəm ki, əgər prioritetləri müəyyənləşdirsək, Rusiya üçün əsas məsələ burada müharibənin alovlanmamasıdır. Rusiya üçün bu heç bir halda sərfəli deyil. Partlayış olmadan status-kvonun dəstəklənməsi işləyir və bundan sonra da işləyəcək".

*****

Rusiya isə hələ də Nikol Paşinyana və hökumətinə şübhə ilə yanaşır. Öz növbəsində Paşinyan öz hakimiyyətinin dayaqlarını Ermənistanda və işğal altındakı Dağlıq Qarabağda möhkəmlətmək üçün yollar və müttəfiqlər axtarışındadır. Çünki inqilabdan artıq 15 ay keçir və çox tezliklə Ermənistanın indiki rəhbəri "məhşər ayağı"na çəkiləcək, ondan hesabat istəniləcək.

Paşinyan isə islahatlar sahəsindəki uğurlardan danışmaq əvəzinə, - hansı ki, hələ gözə dəymir, - ictimai diqqəti əvvəlki rejimin səhvlərinə yönəltmək, bununla da əlavə vaxt qazanmağa çalışır. Bu da növbəti dəlil. İki gün öncə Ermənistanın baş naziri facebook-da canlı yayım zamanı eks-prezident Serj Sərkisyan dönəminə aid məxfi sənəd haqqında danışıb. Paşinyan sənədlə bir neçə ay əvvəl tanış olduğunu, amma məzuniyyəti zamanı onu detallı şəkildə yenidən oxuduğunu bildirib. O, sənəddə məxfiliyin nə olduğunu açıqlamayıb: "Sənədin vacibliyi ondadır ki, o, bizə ölkədəki real vəziyyət haqqında tam məlumat verir. Bütün toplanmış problemləri bir il ərzində həll etmək mümkün deyil. Sənəddə Ermənistanın institusional iflic vəziyyətində olduğu bildirilib".

Diqqət edildi yəqin, Paşinyan problemlərin həlli üçün öz xalqından illər tələb edir, özünü indidən sığortalamağa çalışır. Halbuki həmin problemlərin həlli nə Sərkisyanlıq idi, nə də Paşinyanlıqdır. Problemin kökündə işğal faktı durur və Ermənistan bu yükdən qurtulmayınca nicat tapmayacaq...



## ATƏT təmas xəttində növbəti monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 6-da Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Joviç aparacaqlar.

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# Əhali yenə kreditlə yüklənir- baş bankirin xəbərdarlığı

## Ekspert Elman Rüstəmovun dediklərini haqlı sayır: "İstehlak krediti əlavə dəyər yaratmır"

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov maliyyə-bank sektorunda təhlükəli meyl barədə xəbərdarlıq səsləndirib. Nazirlər Kabinetinin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında çıxış edən baş bankir real sektora verilən kreditlərin azaldığı bir şəraitdə istehlak kreditlərinin (əhaliyə verilən kreditlərin) sürətlə artmasının təhlükəli nəticələri ola biləcəyinə işarə edib: "2019-cu ilin 6 ayı ərzində cəmi kreditlər 1.6 faiz artıb. Bu artım istehlak kreditlərinin 9 faizdən çox artmasından qaynaqlanıb. Amma biznes kreditləri 0,3 faiz azalıb".**

**Elman Rüstəmov** əhaliyə verilən cəmi kreditlərin bankların kredit portfelinin yarısına yaxınlaşmasının problemlər yarada biləcəyi barədə xəbərdarlıq edib: "Mərkəzi Bank hesab edir ki, biz diqqətli olmalıyıq. İstehlak kreditlərinin artması diqqətlə izlənilməlidir. Əhalinin borc yükünün artması, həm də istehlak kreditlərinin cəmi bank sektorunun portfelində 50 faizə yaxınlaşması izlənilməlidir ki, hansı problemlər yarada bilər".

**Mərkəzi Bankın sədri əlavə edib ki, bank sektorunda əhəmiyyətli likvidlik var:** "Yüksək likvidliyə baxmayaraq, biznes kreditləri artmır. Görünür, kompleks requlyativ, stimullaşdırıcı tədbirlər görmək lazım gələcək ki, bu kreditlər bütövlükdə real sektora getsin və bütövlükdə ölkədə daxili investisiya prosesini dəstəkləsin".

**Baş bankirin dediklərini şərh edən iqtisadçı-ekspert Rəşad Həsənovun "Yeni Müsavat"a dediyinə görə, istehlak və biznes kreditləri mahiyyətcə fərqli alətlərdir:** "İstehlak kreditləri iqtisadiyyatda əlavə dəyər yaratmır. Yeni iqtisadi inkişafa dolayısı ilə təsir edir. Məcmu tələbi artırır, bu, dolayısı ilə mal və xidmətlərin istehlakına və ticarət dövriyyəsinin həcminə təsir göstərir. Amma nəzərə alsaq ki, istehlak kreditləri daha çox müəyyən kateqoriyalı məhsulların istehlakına yönələn kreditlərdir, o məhsulların böyük əksəriyyəti idxal məhsullarıdır, onda görərik ki, bu kreditlər daxildə istehsalçı ölkə olaraq əlavə dəyər yarada bilmir. Biznes kreditləri isə birbaşa olaraq iqtisadi aktivliyi dəstəkləməklə, eyni zamanda ümumi daxili məhsul, yeni iş yerləri yaradır. Bu baxımdan, istehlak kreditlərinin artması biznes kreditlərinin azalması, təbii ki, təhlükəli və arzuolunmaz prosesdir. Bu, iqtisadiyyatın özündə mənfi balansın olmasının göstəricisidir. Bu vəziyyət bank sektoru üçün risklər formalaşdırır. Hansı ki, 2015-ci ildə sektor belə risklərlə üzləşdi: istehlak kreditləri 45 faiz idi, iqtisadiyyatın ümumi zəifləməsi fonunda onların geri qaytarılmasında ciddi problemlər yarandı, banklar böyük itkilərlə üzləşdilər. Onların toksik aktivlərinin həcmi normalardan dəfələrlə yüksəyə qalxdı. Buna görə də istehlak kreditlərinin artması iqtisadi çətinlik dövründə bank defoltlarının əsas səbəblərindən biri hesab olunur. İstehlak kreditlərinin zəmanət mexanizmləri zəif olur. Girov kimi istehlak olunmuş məhsulların özü çıxış edir, vaxt keçdikcə dəyərini itirir. Buna görə də son nəticədə banklar aktivlərin likvidləşməsi imkanlarını itirirlər".



**Biznes kreditlərinin azalmasının səbəblərinə gəlincə, ekspert onların bir neçə olduğunu deyir:** "Birincisi, məlum böhranla əlaqədar son 3-4 il ərzində biznesin əksəriyyəti problemli müştəri kateqoriyasına düşüb. Yəni bankın kredit təkliflərini ala biləcək kateqoriyanın əhatə dairəsi kəskin məhdudlaşıb. İkincisi, iqtisadiyyatda mənfəət norması çox aşağı düşüb. 2014-2015-ci illərdə bu norma 70-80 faiz ətrafında dəyişirdisə, indi bu göstərici təxminən 30-35 faiz civarındadır. Bu şəraitdə biznesin 20-30 faizlə kredit cəlb etməsi gəlirli deyil. İndiki şərtlər daxilində biznesin kreditlər hesabına genişləndirilməsi sahibkar üçün əlverişli deyil. Daha bir səbəb budur ki, böhrandan sonra kredit qaydaları xeyli sərtləşdirilib. Düzdür, son zamanlar Maliyyə Bazarlarına Nəzarət Palatası müəyyən yumşalmalara gedib, amma bu, yetərli deyil. 2015-ci ilədək olan dövrə nisbətən kreditləşmə şərtləri xeyli sərtdir. Buna görə də banklarda izafi likvidlik yaranıb".

**R.Həsənovun fikrincə, vəziyyəti dəyişmək, biznes kreditləşməsini artırmaq üçün kompleks addımlar atılmalıdır:** "Birincisi, kredit faizləri aşağı düşməlidir. Kredit faizlərinin aşağı düşməsi isə bir neçə amildən asılıdır: bank sektoru liberallaşdırılmalıdır, təklif artmalıdır. Eyni zamanda mərkəzləşdirilmiş vəsaitlərin bank aktivlərində payı artmalıdır. Bu gün Mərkəzi Bankın uçot dərəcələrinə etdiyi dəyişikliklər ölkədə kredit faizlərində öz əksini tapmır. Bunun əsas səbəbi ondan ibarətdir ki, Mərkəzi Bankın bankların aktivlərində iştirakçılığı çox aşağı səviyyədədir. Banklar aktivləri əhalidən, biznesdən yüksək faizlə cəlb edirlər və bu halda kredit faizləri də yüksəlir. Mərkəzi Bankın bank aktivlərində iştirakının artırılması ilə yanaşı, uçot dərəcəsinin də əhəmiyyətli şəkildə aşağı salınması lazımdır ki, kredit faizləri aşağı düşsün. Bundan əlavə, zəmanət mexanizmləri təkmilləşdirilməlidir. Daşınar girovların reyestrinin işləməsi üçün real addımlar atılmalıdır. Biznesin sığortalanması - xüsusilə də kənd təsərrüfatında - üçün addımlar atılmalıdır. Yəni təməl olaraq tədbirlər görülməlidir: iqtisadiyyat liberallaşmalı, məmurlar biznesdən çəkilməli, inhisarçılıq təşəbbüsləri yerindəcə boğulmalıdır. Biznes mühiti nə qədər azad olacaqsa, biznes təşəbbüsləri də bir o qədər çox olacaq, kreditə tələb artacaq. Bunun fonunda bank sistemi də liberal olacaqsa, biznes kreditlərinin sürətli artımını görə biləcəyik"...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Maliyyə amnistiyası yenidən gündəmdə

## Əkrəm Həsənov: "Bu, iqtisadiyyata ancaq müsbət təsir edə bilər, çünki..."

**Uzun illərdir ölkədə maliyyə amnistiyasının verilməsi gündəmə gətirilir, Milli Məclisdə bu istiqamətdə müzakirələr gedir. Lakin hələ də məsələnin həlli ilə bağlı konkret addımlar atılmayıb. Növbəti dəfə bu mövzunu deputat Fazil Mustafa "AzPolitika.info"ya müsahibəsində gündəmə gətirib. O bildirib ki, qanuni, ya qanunsuz yolla toplanaraq xaricə aparılmış vəsaitlər üzərində amnistiyanın tətbiqi ölkənin investisiya mühitinə müsbət təsir edərdi.**

**Sitat:** "İlk növbədə maliyyə amnistiyası vermək lazımdır. Maliyyə amnistiyasi verməyincə, hamı qorxub pulunu ortaya çıxarmayacaq. Maliyyə amnistiyası verdikdən sonra ola bilsin ki, birinin maddi vəziyyəti digərindən qat-qat üstün olacaq, amma qabiliyyət imkanları sıfırlananda daha qabiliyyətli az vəsaitlə qısa müddətdə böyük xariqələr yarada bilir. Amma rəqabətsiz mühitdə milyardlar qazanan adam rəqabət mühitində qazandığını itirmiş ola bilər. Bu, bazar iqtisadiyyatının əlifbasıdır. Biz gerçək bazar iqtisadiyyatına keçməliyik. Qanuni, qanunsuz yolla kim nə toplayıbsa, amnistiya tətbiq edirsən və deyirsən ki, pulunu xaricdən gətir, qoy öz ölkənə. Və buna görə məsuliyyət daşımırsan, məhkəmə də qarantiya verir. Beləcə, onlar pulu gətirib sərmayə kimi qoyurlar və başqa qaydalarla işləməyə başlayırlar. Yəni ancaq vergini tanıyır və vergi xaricində heç bir qurumu tanımır. Ondan sonra görün ölkə qısa müddətə necə çiçəklənəcək. Hər halda, onların 50 faizinin kapitalını gətirib qoyması kifayət edər".

Bəs görəsən, digər iqtisadçı ekspertlər və deputatlar bu barədə nə düşünür? İndiki halda maliyyə amnistiyasının verilməsi ölkəmizə nə vəd edir?



**Qeyd edək ki, deputat Vahid Əhmədov da uzun illərdir ki, maliyyə amnistiyasının verilməsinin vacibliyindən danışır. Deputat açıqlamalarında bildirir ki, vəsaitlərini xaricə çıxaran məmurların pullarının Azərbaycana gətirilməsinin vaxtı çatıb:** "Həmin vəsaitlər Azərbaycanda investisiya şəklində ictimai-siyasi həyatın inkişafında istifadə olunmalıdır. Amma bunun üçün ilkin olaraq qanun layihəsi hazırlanmalıdır. Qanun elə şəkildə hazırlanmalıdır ki, maliyyə amnistiyası veriləndə həmin vəsait yalnız və yalnız Azərbaycanda iqtisadi inkişafa xidmət etsin, başqa məsələlər üçün istifadə edilməsin. Ancaq maliyyə amnistiyası veriləndə o adamdan bu vəsaiti harada, necə qazanması soruşulmur. Maliyyə amnistiyası verilən zaman həmin vəsaitin ofşor ya da qeyri-bir zonadan gətirilməsi o qədər əhəmiyyət kəsb etmir. Amnistiya verilir və həmin pullar ölkəyə gətirilir".

**İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, maliyyə amnistiyası iqtisadiyyata ancaq müsbət təsir edə bilər:** "Mən maliyyə amnistiyası ifadəsini daha geniş mənada başa düşürəm. Ümumiyyətlə, kimin əlində mənbəyi, mənşəyi bilinməyən əmlak varsa, qanuni əsası olmayan əmlak varsa, onlar leqal elan oluna bilər. Söhbət yalnız maliyyə amnistiyasından getmir. Xeyli adam var ki, onların qanuni əsası olmayan tikililəri var. Onların hər birini dövlət tanımalıdır. Onlar hər biri gəlib əmlakının siyahısını dövlətə təqdim etməli və deməlidir ki, əlimdə bunlar var. Dövlət ilk növbədə həmin əmlakın dəyərinin, məsələn, 10 faizi həcmində vergi tələb edə bilər və buradan qazana bilər. Bu rəqəm fərqli də ola bilər. Qanun da həmin şəxsə zəmanət verəcək ki, heç kəs heç zaman ondan həmin maliyyənin mənbəyini soruşa bilməz. Həmin şəxslər vəsaitlərini ölkə daxilində yerləşdirə bilərlər, ondan gəlir götürə bilərlər, övladlarına saxlaya bilərlər".

**İqtisadçı hesab edir ki, bu vəsaitdən xaricə valyuta axını olsa da, müəyyən hissəsi ölkədə qalacaq:** "Əlbəttə ki, bu vəsaitin bir qismi xaricə də gedə bilər. Ancaq xaricə onsuz da gedir, qarşısını almaq mümkün deyil. Artıq bu insanların bir çoxu xaricə vəsait çıxararkən belə etibar etmirlər. Zamirə Hacıyeva işində biz onu da gördük ki, xaricə yerləşdirilən vəsaitlərə də təminat yoxdur. Sabah onlar da əllərindən alına bilər. O mənada həmin vətəndaşlar da istəyərlər ki, vəsaitlərinin müəyyən hissəsini ölkə içində saxlasınlar. Bu da istər-istəməz ölkəni iqtisadi inkişafa aparacaq. Vaxtilə ABŞ niyə inkişaf etdi? Çünki orada yaşayanların hamısının əmlakı tanındı. Orada kim hansı torpağı tuturdusa, istifadə edirdisə, dövlət onu tanıyırdı və vətəndaş həmin torpaqdan qanuni şəkildə istifadə edirdi. Bu gün Azərbaycanda bir çox daşınmaz əmlak, hotellər, hündür binalar və sairin heç yerdə qeydiyyatı yoxdur. Bununla da inkişaf mümkün deyil. Həmin əmlak üzərindən kredit götürə bilmir, girov qoya bilmir".

**Ə.Həsənovun sözlərinə görə, amnistiyadan sonrakı dövr üçün yol verilən maliyyə cinayətləri üçün cəzalar da müəyyən olunmalıdır:** "İqtisadiyyat orada inkişaf edir ki, iqtisadi cəhətdən fəal olan vətəndaşlarda əmlaklarının, bizneslərinin əlindən alınmayacağı ilə bağlı əminlik hissi olsun. Maliyyə amnistiyası da ilk növbədə bunu təmin edəcək. Maliyyə amnistiyasının bir üstünlüyü də odur ki, həmin qanun bundan sonra edilə biləcək bütün maliyyə pozuntuları ilə bağlı cinayət məsuliyyəti nəzərdə tutacaq, kim buna yol versə cəzasını alacaq. Bu məsuliyyətin olması da gələcəkdə baş verəcək maliyyə cinayətlərinin qarşısını alacaq".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

# Bakıda güclü külək - ağaclar qırıldı, işıqlar kəsildi, xəsarət alanlar var...

## Avqust ayı üçün xarakterik olmayan bu cür anomaliyanın səbəbi nədir?

**Avqust ayının 5-də səhər paytaxt Bakıda güclü külək başlayıb. Küləyə görə şəhərin üzərində toz qatı müşahidə olunub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqlamasına görə, küləyin sürəti günün birinci yarısında saniyədə 26-28 metr təşkil edib. Günün ikinci yarısına doğru küləyin sürətinin daha da artdığı müşahidə olunub. Güclü külək bir sıra ciddi fəsadlara yol açıb, Bakıda və Sumqayıtda ağacların aşmasına dair çoxsaylı faktlar qeydə alınıb, evlərin damının uçması halları baş verib, xəsarət alanlar var.**

Qeyd edək ki, sinoptiklər bu qeyri-sabit havanı əvvəlcədən proqnozlaşdırmışdılar və üç gün əvvəl müvafiq xəbərdarlıq edilmişdi. Avqust ayı üçün xarakterik olmayan bu cür qeyri-sabit hava şəraiti ölkəyə şimaldan Arktik hava kütlələrinin daxil olması ilə əlaqəlidir.

Qeyri-sabit hava şəraiti ölkənin şimal və qərb rayonlarında da müşahidə olunur. Qeyri-sabit hava səbəbindən Bakı-Quba və Bakı-Salyan yolunda avtomobillərin hərəkətində çətinlik yaranıb. Bakı-Quba yolunda nəqliyyat vasitələrinin toz qasırğasına düşmələri və çətinliklə hərəkət etməsi ilə bağlı sosial şəbəkələrdə videokadrlar yayılıb.

Paytaxtın Yasamal rayonunda, Azərbaycan Milli Elmlər Akademiyasının həyətində külək ağacı bankomatın üzərinə aşırıb. Hadisə nəticəsində yaxınlıqdan keçənlər xəsarət almayıb. Nərimanov rayonunda, Atatürk prospektində ağac yolun ortasına aşıb və nəqliyyatın hərəkəti üçün maneə yaradıb. "Malakan bağı"nda isə iri gövdəli ağac avtomobilin üzərinə aşıb. Binəqədi rayonu 7-ci mikrorayonda 5 mərtəbəli yaşayış binasının qarşısında da ağac avtomobilin üzərinə aşıb.

Digər hadisə isə Yasamal rayonunun Hüseyn Cavid prospektində qeydə alınıb. Güclü küləyin təsirindən prospektdəki yaşayış binalarından birinin damı uçub.

Habelə güclü külək nəticəsində Abşeron rayonunun Müşfiqabad qəsəbəsində ağac aşaraq qaz xəttini dirəklərdən ayırıb. "Azəriqaz" İstehsalat Birliyindən verilən məlumata görə, qaz sızması müşahidə olunmadığından abunəçilərin "mavi yanacaq"la təchizatında fasilə yaranmayıb.

**Bakı Şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Bitkilərin Mühafizəsi şöbəsindən virtualaz.org-a verilən məlumata görə, artıq səhər saatlarından idarəyə ağac aşması ilə bağlı 48-dən çox müraciət daxil olub:** "Ən çox fəsadlar Nərimanov, Səbayel, Nəsimi və Nizami rayonlarında qeydə alınıb. Zəngi qəbul edən kimi dərhal briqadalarımız həmin ərazilərə yollanıblar. Çalışırıq ki, güclü küləyin fəsadlarını günün sonunadək aradan qaldıraq", - Bitkilərin Mühafizəsi şöbəsindən bildirilib.

Güclü külək Sumqayıtda da fəsadlar törədib. Şəhərin 3-cü mikrorayon ərazisində yerləşən 12 mərtəbəli binanın fasadının bəzi hissələrini və dam örtüyünü külək uçurub.

Sumqayıt şəhəri, 12-ci mikrorayonda 10 yaşlı qızın başına ağac budaqları sınıb tökülüb. Səhiyyə Nazirliyindən verilən məlumata görə, Sumqayıt şəhər xəstəxanasına çatdırılan xəstəyə qapalı kəllə-beyin travması və gicgah nahiyəsindən beyin əsasına keçən sınıq diaqnozu qoyulub. Hazırda reanimasiya şöbəsində müalicəsi davam edir, huşu aydındır. Vəziyyəti orta-ağırdır.

Şiddətli külək səbəbindən dənizdə çalışan neftçilər təxliyə edilib. SOCAR-dan verilən məlumata görə, sürəti 30-35 metr/saniyə külək gözlənildiyi üçün dənizdə bütün işlər dayandırılıb, 700-ə yaxın işçi quruya təxliyə olunub.

**Bakı Nəqliyyat Agentliyi hazırda paytaxtda müşahidə edilən küləkli hava şəraiti ilə bağlı ictimai nəqliyyatdan istifadə edən şəxslərə müraciət edib. Agentlik avqustun 8-dək davam edəcəyi proqnozlaşdırılan küləkli hava şəraiti ilə əlaqədar hərəkət iştirakçılarını diqqətli və ehtiyatlı olmağa çağırıb.**

"Sərnişinlərdən xahiş edirik ki, dayanacaq pavilyonlarında avtobus gözləyərkən diqqətli olsunlar. Həmçinin nəqliyyat mübadilə mərkəzlərinin ərazisində və digər yerlərdə yolun hərəkət hissələrinə çıxmasınlar, yalnız müəyyən edilmiş dayanacaq məntəqələrində avtobuslara minib düşsünlər, yolun qarşı tərəfinə keçərkən müəyyən olunan piyada keçidlərindən istifadə etsinlər. Sürücülərə isə tövsiyə edirik ki, hərəkətdə olarkən yollarda müəyyən edilən sürət həddinə və yol nişanlarının tələblərinə riayət etsinlər", - BNA bildirir.

Hava şəraiti ilə əlaqədar paytaxt yollarına və ictimai nəqliyyat infrastrukturlarına nəzarət gücləndirilib. Hazırda müşahidə edilən küləkli hava şəraiti ilə əlaqədar yollarda təhlükəsizlik tədbirləri görülür. Bu çərçivədə Heydər Əliyev prospekti-Hava limanı və Zığ dairəsi-Hava limanı avtomagistrallarında bütün hərəkət zolaqları üzrə sürət həddi 20 km/saat endirilib. Məlumat lövhələrinə güclü küləklə bağlı xəbərdaredici məlumat yazılıb.

Ölkənin şimal bölgəsində (Yalama, Xaçmaz, Xudat) başlanan güclü küləklə bağlı baş verə biləcək kəsinti və qəza hallarının qarşısını almaq üçün "Azərişıq" ASC də önləyici tədbirlər görməyə başlayıb.

Qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası kosmik hava durumu ilə bağlı xəbərdarlıq edib. Bildirilib ki, güclü külək sonradan fırtına ilə müşayiət olunacaq. Həmçinin Azərbaycanda maqnit qasırğasının baş verəcəyi gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva açıqlama verib. U.Tağıyeva bildirib ki, ölkə ərazisində bu ayın 5-dən gözlənilən güclü külək haqqında xəbərdarlıqlar tərtib olunub və bütün əlaqədar qurumlara, eləcə də KİV-ə təqdim olunub: "Xəbərdarlıqda göstərilib ki, avqustun 5-dən səhər saatlarından başlayaraq 8-nə qədər ölkə ərazisində hava şəraiti küləkli olacaq. Küləyin maksimum sürəti ayın 5-nə gözlənilir.

**U. Tağıyeva qeyd edib ki, mövcud hava şəraiti Bakı və Abşeron üçün xarakterikdir.**

❑ **SEVİNC,**
**"Yeni Müsavat"**







# Adı Quranda olan bal arısı...

## Bədrəddin Həsənov: "Azərbaycanda arı xəstəliyini üzə çıxaran konkret laboratoriya yoxdur"

**"Rəbbin bal arısına vəhy (təlqin) etdi: "Dağlarda, ağaclarda və insanların qurduqları çardaqlarda, üzümlüklərdə özünə evlər tik, pətəklər sal".**

69: "Sonra bütün meyvələrdən ye və Rəbbin sənə göndərdiyi yolla rahat get (və ya Rəbbin yollarını itaətlə tut). O arıların qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!"

Bu ayələr Qurandakı 114 surədən biri olan Ən-Nəhl (bal arısı) surəsinin 68-69-cu ayələridir.

Rusiyada arıların kütləvi şəkildə qırılması ilə bağlı məlumat yayılıb. Məlumatda bildirilir ki, arıların bu cür qırılmasının səbəbi sahələrin təsərrüfat məqsədilə dərmanlanmasıdır.

Bəs Azərbaycanda arıçılıq sahəsində vəziyyət necədir?

**"Yeni Müsavat"a danışan Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsənov bildirib ki, ölkədə arıçıların sayı ötən illərlə müqayisədə xeyli artıb:**

"Əslində Azərbaycanda təsərrüfat sahəsində aparılan işlərin arıçılığa ciddi təsirləri yoxdur. Ancaq tamamilə yoxdur desək də, düzgün olmaz. Çünki ölkədə pambıqçılıq inkişaf etdikcə, dərmanlama çoxalır. Bizdə son zamanlar aran bölgələrində arıçılıq sürətlə inkişaf etməyə başlamışdı. İndi də orada bu cür proses gedir. Lakin pambıqçılıq sahəsi inkişaf etdikcə, pambıq əkini gücləndikcə orada bir qədər durğunluqlar yaranır. Hər halda, pambıqda sovkaya qarşı dərman vurulur ki, bu, arıya da təsir göstərir. Bəzi yerlərdə fındıq ağacına da dərman vurulur. Bu da arıların qırılmasına səbəb olur. Ancaq kütləvi şəkildə arıların qırıldığını söyləmək olmaz. Əksinə, Azərbaycanda arıçılıqda inkişaf var. Belə ki, 2017-ci ildə Azərbaycanda 270 min arı ailəsi vardı. Bu gün artıq bu, 500 mini keçib. Azərbaycanın 60 rayonunda arıçılıq var. Daha çox arıçılıqla Şəki-Zaqatala bölgəsində və eyni zamanda ölkənin cənub ərazilərində məşğul olurlar. Gədəbəy, Daşkəsən, Quba, Qusarda da xeyli arıçılar mövcuddur. Artıq Kürdəmir, Yevlax, Ağcabədi kimi rayonlarda da arıçılıqla məşğul olunur. Hətta bizim Kürdəmirdə arıçılar birliyimiz də var. Yəni ümumilikdə deyə bilərik ki, aran zonasında da son zamanlar arıçılıq inkişaf edir".

**B. Həsənov bildirib ki, arıçıların sayının artması nəticəsində balın qiymətinin ucuzlaşması baş verə bilər:** "Biz hər zaman gözləyirik ki, arıçılıq inkişaf etsin, qiymətlər aşağı düşsün.



Lakin bu sahədə müəyyən problemlər var. Belə ki, xarici ölkələrdən Azərbaycana külli miqdarda bal gətirilir. Bu bal deməzdim ki, Azərbaycan balı keyfiyyətində ola bilər. Çünki bu ballar əsasən mədəni bitkilərin əkildiyi yerlərdən əldə olunur. Nəticədə bu cür ballar daha ucuz başa gəlir və Azərbaycana gətirib onu burada satırlar. Ölkəyə bal gətirilməsi isə yerli məhsulun satışına mənfi təsir göstərir. Ona görə də artıq biz məsələ qaldırmışıq ki, Azərbaycana balın idxalı hansısa formada durdurulsun. Necə ki, digər məhsullara bu cür qaydalar tətbiq edilir, bala da bunu etmək olar. Türkiyədə bal idxalı məhdudlaşdırıldıqdan sonra ölkədə arıçılıq xeyli inkişaf etdi. Eyni zamanda İsraildə də bu cür təcrübə var".

**B. Həsənov qeyd edib ki, arıların qırılması təkcə dərmandan asılı deyil:** "Arıların qırılması halları bir çox səbəblərdən asılıdır. Ancaq inkişaf etmiş ölkələrin əksəriyyətində arılar yuvanı tərk edirlər. Yəni loru dillə desək, yuvadan qaçırlar. Bunu bəzi hallarda virusoloji xəstəliklərə bağlayırlar. Azərbaycanda arı xəstəliyini üzə çıxaran konkret laboratoriya yoxdur. Baytarlıq xidmətinin bu cür laboratoriyaları var. Ancaq onlar da bəzən doğru, bəzən isə yanlış cavab verirlər. Tamamilə ixtisaslaşmış laboratoriya mövcud deyil. Deyirlər ki, telefon dalğalarının da arıya təsiri var. Ancaq bu, dəqiq fakt deyil. Sadəcə olaraq, versiya kimi səsləndirilir. Arının yuvanı tərk etməsi halları Azərbaycanda da var. Ancaq kütləvi qırılma mövcud deyil. Bizdə fitosanitarlarla əməkdaşlıq mövcuddur. Belə ki, hansı ərazidə dərmanlanma işləri aparılacaqsa, öncədən bizə xəbər verilir və arılarımızı həmin ərazilərdən çıxarırıq. Bu da arıları qoruyub saxlamağımız üçün şərait yaradır. Ona görə də yekun olaraq deyə bilərəm ki, ölkədə Rusiyadan fərqli olaraq arıların qırılması halları yaşanmır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 163 (7333) 6 avqust 2019

# Bakı Nəqliyyat Agentliyi Heydər Əliyev prospektində nə etmək istəyir?

## Qurum hərəkətin təhlükəsizliyi səviyyəsinin artırılması məqsədilə Nazirlər Kabinetinə təkliflər göndərib

**Bakı Nəqliyyat Agentliyi (BNA) Heydər Əliyev prospektində yol hərəkəti təhlükəsizliyi səviyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasına təkliflər ünvanlayıb.**

BNA-dan verilən məlumata görə, Heydər Əliyev prospektinin Böyükşor yol qovşağından Mərdəkan yol qovşağına qədər olan hissəsində baş vermiş yol-nəqliyyat hadisələri narahatlıq doğurduğundan ərazi təhlil edilib və qəzaların başvermə səbəbi kimi aşağıdakı problemlər qeydə alınıb:





**1. Prospektin Böyükşor yol qovşağından Sabunçu yol qovşağına qədər olan hissəsində ayırıcı zolaqda təhlükəsizlik sədlərinin olmaması.** Nəticədə idarəetməni itirən nəqliyyat vasitələri yolun əks istiqamətinə çıxır və ağır qəzaların baş verməsinə səbəb olur. Qeyd edək ki, yolun əks istiqamətinə çıxmaqla törədilən yol-nəqliyyat hadisələrində ölüm riski digər yol-nəqliyyat hadisələrindən 3 dəfə yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, son 1 ay ərzində bu ərazidə agentlik tərəfindən qeydə alınmış bu tip hər 2 yol-nəqliyyat hadisəsi ölümlə nəticələnib.

**2. Yolda sürət həddinin yüksək olması.** Hazırda Heydər Əliyev prospektinin Böyükşor yol qovşağından Mərdəkan yol qovşağına kimi olan əksər hissəsində sürət həddi ilk iki zolaqda 120 km/saat müəyyən edilmişdir. Bu da yüksək sürət halında sürücülərin bir çox vəziyyətlərdə qeyri-peşəkarlıqları nəticəsində idarəetməni itirmə risklərinin artmasına səbəb olur.

**3. Sürücülərin ara məsafəsini gözləməməsi.** Nəticədə sürücülər yolda baş verən hadisələr və qabaqlarına çıxan maneələrə lazım olan kimi reaksiya verə bilmirlər. Məsafənin sürücünün reaksiya müddəti ilə mütənasib olmaması zəncirvari qəzaların baş verməsinə səbəb olur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Heydər Əliyev prospektinin Böyükşor yol qovşağından Mərdəkan yol qovşağına kimi olan hissəsində yol hərəkəti təhlükəsizliyinin artırılması məqsədilə aşağıda göstərilən tədbirlərin qısa müddət ərzində icra edilməsi təklif edilib.

*1. Heydər Əliyev prospektinin Böyükşor yol qovşağından Sabunçu yol qovşağına qədər olan hissəsində ayırıcı zolaqda təhlükəsizlik sədlərinin quraşdırılması;*

*2. Yolda sürət həddinin ilkin olaraq 120 km/saatdan 110 km/saata endirilməsi;*

*3. Sürücülərin ara məsafəsini gözləməsi üçün xarici təcrübədə də istifadə olunan “şevron” tipli yol nişanlanmasının (əlavə olunur) tətbiq edilməsi;*

*4. Sürücülərin yol hərəkəti qaydalarına riayət etməsi məqsədilə prospekt boyu maarifləndirici məlumatları özündə əks etdirən lövhələrin yerləşdirilməsi.*

Bundan əlavə, qeyd olunub ki, hazırda mütəxəssislər tərəfindən Heydər Əliyev prospektində həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaradan sürücülərin də məsuliyyətə cəlb edilməsi məqsədilə zolaqlar üzrə hərəkət sürətinin aşağı və yuxarı hədlərinin müəyyən edilməsi üçün təkliflər araşdırılır.

# Bakıətrafı qəsəbələrin marşrut bəlası-yeni qiymət, köhnə avtobus...

## Şəhərin ictimai nəqliyyatında yenə sınıq-salxaq avtobuslar işləyir, oturacaqları cırılıb-deşilib, kart sistemi işləmir, interval bərbad...

**Bakının ictimai nəqliyyatında sabiq nazir Ziya Məmmədovdan sonra elə bir ciddi dəyişiklik olmayıb - yenə sınıq-salxaq avtobuslar, oturacaq yastığı cırılmış-deşilmiş vəziyyətdə, kart sistemi işləmir, interval bərbad, dayanacaqdan kənarda saxlama halları və s.**



Gündəlik marşrutdan istifadə edənlər təsdiqləyər ki, istər şəhərin mərkəzi, istərsə ətraf ərazilərə hərəkət edən avtobusların əksəriyyəti köhnə, baxımsız, dağılıb-tökülmüş haldadır. Təbii ki, “BakuBus” avtobusları yalnız təriflənə bilər, onlar da bütün paytaxtı əhatə etməyiblər.

Belə gözlənirdi ki, Z.Məmmədovdan sonra şəhərin ictimai nəqliyyatına əncam çəkiləcək, pis-yaxşı əl gəzdiriləcək. Amma müşahidələrimiz əksini sübut edir.

Turistlərin axışdığı, fontanların, parkların çoxaldığı, az qala meqapolisə çevrilən Bakı əhalisi hələ də ənənəvi marşrut sistemindən xilas olmayıb. İstəsəniz “Gənclik”, istəsəniz “Neftçilər” metrosundan çıxın, dayanacaqlarda qışqıran konduktorlar, bir-birinin növbəsinə girən sürücülər, hərəkət zolağını zəbt edən avtobuslar, intervalı pozan şoferlər, basabas görəcəksiniz. İllər keçir, heç nə dəyişmir, avtobuslar müasirləşmir, yenilənmir, o zaman Nəqliyyat Nazirliyinin qərar verdiyi kart sisteminə keçilməyib.

Sürücülər deyirlər ki, bunun yeganə yolu Bakının bütün nəqliyyat xətlərində bütünlüklə “BakuBus” olmasıdır. O da yaxın vaxtlarda mümkün deyil.

Onlar bildirirlər ki, hər marşrut xətti bir sahibkara məxsusdur, bu sektorda total dövlət nəzarəti yoxdur.

Ona görə sahibkarlar köhnə avtobus alıb xəttə buraxırlar. Sürücülər deyirlər ki, Z.Məmmədovdan sonra təzə avtobuslar alınmayıb. Bəzi xətlərdə 3-4 avtobus dəyişib, yəni əsaslı yenilənmələr olmayıb.

**Sərnişinlər isə haqlı olaraq deyirlər ki, marşrutda gediş haqqı artırılaraq 30 qəpik oldu:** “Amma xidmət səviyyəsi artmadı. Heç bir əsası olmadan marşrut bahalaşdı. Məntiqlə qiymət qalxırsa, avtobuslar təzələnməlidir, interval intensiv olmalıdır, kart sistemi tətbiq olunmalıdır, iylənmiş, oturacağı sökülmüş avtobuslarda getməməliyik. Bunların hansı oldu? Şəhərin bəzi avtobuslarında kart sistemi işləkdir. Tarif Şurası deməliydi ki, biz gediş haqlarını bahalaşdırırıqsa, şirkətlər sərnişinin komfortunu nəzərə almalıdır, təzə avtobuslar gətirilməlidir. Bakıda avtobusların çoxu tormoz verib dayananda cırıltı səsi dünyanın o başında eşidilir. Dayanacaqlardakı elektron monitorlar işləmir, interval deyilən bir şey qalmayıb, köhnə avtobusların şoferləri hələ də sükan arxasında siqaret çəkirlər.

Yəni Ziya Məmmədovdan sonra heç nə dəyişməyib, marşrut sistemi biabırçılıqdır. Yalnız bu problemləri həll edəndən sonra gediş haqlarını qaldırmaq barədə bəlkə danışa bilərdilər".

“Mən niyə kondisioneri olmayan, cır-cır eləyən, dağılıb-tökülmüş avtobusla əziyyət çəkib hər gün işdən evə, evdən işə getməliyəm? Hələ bir 30 qəpik də verməliyəm? Əgər qiymət artırsa, keyfiyyət də yüksəlməlidir” - deyə 113 nömrəli avtobusdan (Əmircan - Qara Qarayev istiqaməti) gündəlik istifadə edən Vasif şikayətlənir.

Onun dediyinə görə, sürücülərə nəzarət də gücləndirilməlidir. Çünki istədikləri kimi avtobusu idarə edirlər, qəza riski yaradırlar.

Qaydalara görə, iki ildən az təcrübəsi olanlar Bakıda avtobus idarə edə bilməzlər. Amma qanun işləmir. Avtobus qəzalarının çoxalmasının bir səbəbi də budur.

Bundan əlavə, sürücülərin ağzına qədər sərnişinlə dolu avtobusları qapıları açıq vəziyyətdə sürməsi, sınıq-salxaq avtobuslar, dayanacaqlarda bəzən 1 saat avtobus gözləyən sərnişinlər Bakıətrafı qəsəbələr üçün adi mənzərədir.

Əslində Bakıda sərnişindaşımada hökm sürən xaos, bu sahənin faktiki olaraq kriminallaşması Ziya Məmmədovun nazir işlədiyi dövrlərdən miras qalıb. Bakıda sərnişindaşıma ilə məşğul olan əsas şirkətlərdən biri hələ də onun ailə üzvlərinə məxsusdur. Başqa sözlə, Ziya Məmmədov vəzifədən getsə də irsi hələ yaşayır. Bu sahədə xaosu aradan qaldırmaq üçün yaradılan Bakı Nəqliyyat Agentliyi isə belə görünür ki, xüsusən Bakıətrafı qəsəbələrə sərnişindaşımada vəziyyəti dəyişdirməkdə hələ acizdir.

Bakıətrafı kənd və qəsəbələrə işləyən marşrutların 50 faizdən çoxu təmir olunmalıdır, hətta dəyişdirilməlidir.

Onu da deməliyik ki, paytaxtda bir çox marşrut xətləri bir-birini təkrarlayır. Bu da ilkin olaraq şəhərin yüklənməsinə səbəb olur. İkincisi, bu, ekologiyanın çirklənməsi deməkdir.

Ölkə rəhbərliyinin istəklərindən biri də avtobusların sıxılmış təbii qazla işləməsidir. Bakı Nəqliyyat Agentliyi rəhbərliyinin təklif etdiyi qanun layihəsində 2022-ci ildən ictimai nəqliyyatda sıxılmış təbii qazla işləyən, yaxud elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadə nəzərdə tutulur.

Hətta ölkə başçısı Bakıda avtobus parkının yenilənməsi üçün 2018-ci ilin avqustunda 47 milyon 924 min manat ayırıb. Sərəncama əsasən, BNA-ya ayrılan vəsait hesabına 300 ədəd sərnişin avtobusu almalıdır.

Xatırladaq ki, ötən ilin iyul ayında Tarif Şurası Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifini 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik etdi.

Qiymətlərin bahalaşmasını aidiyyəti qurumlar xidmət keyfiyyətinin yüksəldilməsi ilə əlaqələndirirdi. Aylar keçib, nəticə isə yaxşılığa doğru dəyişmir...

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

**Elan**

**Nəsirova Nüşabə Məmməd qızının adına olan Q.Qarayev 73, m.50 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 163 (7333) 6 avqust 2019

**Bu gün Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Qarabağ" klubu Kiprdə APOEL-lə qarşılaşacaq. Nikosiyadakı GSP stadionunda keçiriləcək qarşılaşma Bakı vaxtilə saat 21:00-da start götürəcək.**

# Kipr atletləri 17 legionerlə "Qarabağ"a qarşı

## Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində bu gün "Qarabağ" APOEL-lə qarşılaşacaq; kimin şansı daha çoxdur?

















Ağdam təmsilçisi iki gün öncə Kiprə gedib. "Qarabağ" APOEL-lə oyun üçün sifariş vərəqəsini UEFA-ya təqdim edib. UEFA-nın saytının xəbərinə görə, Ağdam təmsilçisi 25 futbolçu sifariş verib. Heyətdə müdafiəçi xəttində Ailton Silva və Rerrars Faysalın adı da var.

Yeni transferlər- yarımmüdafiəçi Xayme Romero və hücumçu Maqaye Qeyenin də adı sifariş ərizəsində var. Təəssüf ki, xorvat futbolçu Filip Ozobiç Kiprdə klubuna kömək edə bilməyəcək. Onda dizətrafında sümük qırığı aşkarlanıb və əməliyyat ediləcəyi istisna deyil. "Dundaik"la matçda zədələnən Miçel və Maksim Medvedyevin isə görüşdə meydana çıxacağı gözlənilir. Transferlərdən söz düşmükən, "Qarabağ"ın rəqibi də heyətinə yeni oyunçu cəlb edib. Qol.az-ın xəbərinə görə, Nikosiya təmsilçisi Səudiyyə Ərəbistanının "Əl-Faysali" klubunun yarımmüdafiəçisi Omar Hanini alıb. Futbolçu yeni komandasının forması ilə şəklini "İnstagram" hesabında paylaşıb.

Rəqibimiz 25 futbolçu sifariş verib ki, onlardan 17-si legionerdir. Onlar qapıçılar Vid Belets (Sloveniya), Boy Vaterman (Hollandiya), müdafiəçilər Kevin Lyafrans (Fransa), Joaozinyo (Portuqaliya), Praksitelis Vuros (Yunanıstan), Vuyadin Saviç (Fransa), Draqan Mixayloviç (İsveçrə), yarımmüdafiəçilər Savvas Qendzoqlu (Yunanıstan), Lukas Souza (Portuqaliya), Tomas De Vinsenti (İtaliya), Uroş Matiç (Makedoniya), Alef dos Santos Saldanya (Braziliya), hücumçular isə Linus Hallenius (İsveç), Musa Süleyman (İordaniya), Andriya Pavloviç (Serbiya), Antonio Yakoliş (Xorvatiya) və Roman Bezyakdır (Sloveniya).

Nikosiya təmsilçisi 1926-cı ildə yaranıb. Həmin vaxt qənnadı sexində bir araya gələn 40 yunanıstanlı özləri üçün futbol komandası yaratmağa qərar verib. APOEL adı altında yaranan komanda cəmi 2 il sonra fəaliyyətini genişləndirmək, digər idman növlərinə də diqqət ayırmaq məqsədilə APOEL-ə çevrilib. Klubun adı belə oxunur: Nikosiyanın Yunan Atletik Futbol Klubu. APOEL 10 illik yubileyin qeyd olunduğu 1936-cı ildə ilk çempionluğunu yaşayıb.

1948-ci ildə Yunanıstandakı vətəndaş müharibəsinə fərqli baxışlar klub rəhbərliyi 2 yerə parçalanıb. Tarixində 23 dəfə Kipr çempionu, 19 dəfə Kipr kubokunun qalibi, 11 dəfə 1963, 1984, 1986, 1992, 1993, 1996, 1997, 2002, 2004, 2008, 2009 Superkubokun qalibi olan APOEL Çempionlar Liqasının qruplarında oynayıb.

**APOEL-in baş məşqçisi italiyalı mütəxəssis Paulo Trametsani "Qarabağ" - "Dandalk" oyununu canlı izləmək üçün şəxsən Bakıya gəlmişdi. Baş məşqçi Kipr mətbuatına "Qarabağ" haqda danışıb:** "Bu mərhələdə zəif rəqib olmur. Hamısı güclü, eyni zamanda fərqli komandalardır. "Qarabağ" güclü və texnikalı komandadır. Heyətində uzun illərdir birlikdə oynayan yaxşı futbolçular var. Rəqibin kimliyindən asılı olmayaraq, oyunlar çətin keçəcək" - deyə, bildirib.

**"Qarabağ" futbol klubunun vitse-prezidenti Tahir Gözəl isə bunları deyib:** "Bilirsiniz, rəqib güclüdür, büdcəsi də bizimkindən çoxdur. APOEL hörmətəlayiq klubdur. "Qarabağ"ın oyununu birgə izlədik, mən həzz aldım. Qurban Qurbanov doğru siyasətlə klubumuzu idarə edir. "Qarabağ" doğru addımlarla irəli gedir. Hesab edirəm ki, indiki komanda tarixin ən güclü "Qarabağ"ıdır. Fikrimcə, çoxunuz mənimlə razılaşarsınız. Ona görə də addımlarımızı əmin şəkildə atırıq, qabağa gedirik. Kim deyə bilər ki, yekun nəticə nə olacaq? Ancaq hesab edirəm ki, APOEL qarşısında güclü komanda görəcəyik.

"Qarabağ" oyun, cəsarət, keyfiyyət və şəxsiyyəti ilə Qarabağ məsələsini dünyaya çatdırmalıdır. Bizim işimiz budur". Oyunqabağı proqnozlara gəlincə, Ağdam klubunun Bakıda böyük hesabla(3:0) qalib gəldiyi "Dundalk"ın baş məşqçisi Vinni Pert Azərbaycan təmsilçisinin Kipr klubunu üstələyə biləcəyini söyləyib: "Kiprdə heç kimin xətrinə dəyməmək şərti ilə qeyd etmək istərdim ki, növbəti mərhələdə "Qarabağ"a azarkeşlik edəcəyəm. Biz də istərdik ki, belə bir klubumuz olsun. Favorit qismində "Qarabağ"ı görürəm və məncə, bu komanda APOEL-i də keçəcək".

**APOEL və "Qarabağ" komandaları arasında ilk oyunu italiyalı hakimlər briqadası idarə edəcək.**

**Baş hakim: Davide Massa**

**Yan xətt hakimləri: Fabiano Preti, Alberto Teqoni**

**Dördüncü hakim: Rosario Abisso (hamısı İtaliya)**

Beynəlxalq miqyasda hakimliyə 2014-cü ildə başlayan Massa indiyədək həm Kipr APOEL-i, həm də "Qarabağ"ın bir oyununu idarə edib. 38 yaşlı referi Kipr təmsilçisinin 2015/2016 mövsümündə Çempionlar Liqasının II təsnifat mərhələsində "Vardar"la Makedoniyada keçirdiyi oyunda iş başında olub. Həmin görüş heç-heçə ilə yekunlaşıb - 1:1. Təcrübəli baş hakim ötən mövsüm Avropa Liqasının qrup mərhələsində "Qarabağ"ın Bakıda İngiltərə "Arsenal"ına 0:3 hesabı ilə uduzduğu II tur matçında da meydana çıxıb. Massanın ilk oyunlarından biri isə 2014/2015 mövsümündə Avropa Liqasının II təsnifat mərhələsində Bakı "İnter"inin (indiki "Keşlə") İsveçdə "Elfsborq"a 1:0 hesabı ilə qalib gəldiyi qarşılaşmaya təsadüf edib.

Qeyd edək ki, APOEL-lə "Qarabağ" arasında cavab oyunu avqustun 13-də Bakıda keçiriləcək. Kipr klubu cavab oyununa gəlmək istəyən azarkeşləri üçün xüsusi təyyarə təşkil edəcək. Klubun rəsmi saytının məlumatına görə, çarter reysli təyyarə Larnakadan Bakıya avqustun 11-də axşam saatlarında uçacaq və oyundan dərhal sonra geri qayıdacaq. Onlar "Hyatt Regency" hotelində yerləşdiriləcəklər. Səfər hər bir azarkeşə viza, səhər yeməyi və transfer xərcləri daxil olmaqla 570 - 800 avroya başa gələcək. Bura bilet xərcləri aid deyil.

**❑ Orxan ƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 163 (7333) 6 avqust 2019

## Bu protezləri şüurla idarə etmək mümkündür

**Dünyada ilk dəfə olaraq şüurla, fikirlə idarə olunan protezlər sınanıb. Həkimlər və texnoloqlar əzələlərin hərəkətini idarə edən sinirləri təkrarlayan metod hazırlayaraq protezlər yaradıblar.**

İki qolu çiyindən kəsilmiş pasiyent bu protezlər vasitəsilə illər sonra ilk dəfə masanın üstündəki stəkanı götürə bilib.

Alimlərin dediklərinə görə, "sensasiya" kəlməsini sevməsələr də, nail olduqları çox önəmli və əhəmiyyətlidir.

ABŞ-ın Kolorado ştatının sakini Les Bo 40 il əvvəl elektrik qəzasında qollarını itirmişdi. Və 40 il sonra o, ilk dəfə masa üzərindəki su stəkanını götürməklə yanaşı, qollarını və əllərini istədiyi kimi hərəkət etdirib. Onun üçün hazırlanmış protez fikirlə, emosiyalarla idarə olunur.

Con Hopkins Universitetinin tətbiqi fizika laboratoriyasında (Johns Hopkins University Applied Physics Laboratory, APL) hazırlanmış yeni protez çiyin səviyyəsində kəsilmiş qolları əvəzləyən amputantlardır. Bu modul protezlərin ikisini də eyni vaxtda hərəkət etdirmək mümkündür.

Protez "TheRevolutionizing Prosthetics Program" çərçivəsində hazırlanıb.

Universitetin əməkdaşı, cərrah-travmatoloq Albert Çinin dediyinə görə, yeni proses kəsilmiş qollardakı əzələləri idarə etmiş sinirlərin iş prinsipindən qaynaqlanır. "Qolu çiyindən kəsilərək amputasiya olunmuş adama belə protez vasitəsilə yardım edə bilərik. Həmin adam, sadəcə, hansı hərəkəti etmək istədiyini düşünəndən sonra qollarını tərpədə bilər", - Çi söyləyib.

# 47 il əvvəl dənizə atılmış butulkanı tapdı

**Nyu-York sakini 47 il əvvəl dənizə atılmış butulka tapıb. 75 yaşlı Syuzen Hennes çimərlikdə gəzərkən bu butulkanı görüb. Onun içindəki kağızda isə yazılıb ki, bu, 1972-ci ildə Lonq-Aylenddəki Vilyam Floyd adına məktəbin şagirdləri tərəfindən aparılan təcrübədir. Orada həmçinin yazılıb ki, butulkanı tapanı 50 dollar mükafat gözləyir. Amma məktəb nümayəndələri hesab edir ki, bu, zarafata yazılıb. Qadın həmin məktəbdə gözətçi işləyən bacısı ilə əlaqə saxlayıb və ondan xahiş edib ki, həmin illərdə məktəbdə çalışmış müəllim heyətindən kimisə onunla calaşdırsın. O, həmin illərdə bu eksprimenti aparan bir nəfərlə danışmaq istəyib.**



Hennes yaxın günlərdə bu təcrübəni həyata keçirən müəllimlərlə görüşməyi və tapdığı butulkanı onlara təqdim etməyi planlaşdırır.

22 iyulda xəbər verilmişdi ki, avstraliyalı 50 il bundan əvvəl Böyük Britaniyadakı bir oğlan tərəfindən yazılıb butulkada dənizə atılmış bir məktub tapıb. 17 noyabr 1969-cu ildə bir uşaq balaca bir məktubu "Coca-Cola"nın şüşə butulkasına qoyub və Hind okeanına atıb. Yarım əsr boyunca butulka 3.7 min kilometr məsafə qət edib.

# İnsan ölür, amma şüuru itmir



**Elm adamları ölümdən sonra da şüurun davam etdiyini kəşf ediblər. Bu qənaətə İngiltərə, Amerika və Avstraliya həkimləri 15 xəstəxanada apardıqları araşdırmadan sonra gəliblər. İnfarkt keçirən, kliniki olaraq ölən və yenidən geri qayıdan 2 min insan üzərində edilən tədqiqatdan sonra məlum olub ki, həmin insanların 40 %-nin beyni dayansa belə, şüuru itmir. İnfarkt keçirən 57 yaşlı bir ingilisin ürəyi 3 dəqiqəlik dayansa da, "o dünyadan" geri qayıtdıqdan sonra ətrafındakı həkimlərə nə gördüyünü danışmağa başlayıb. Bəzi xəstələr kinolarda təsvir edilən kimi, ağ parlaq işıq gördüyünü, bəziləri isə bir əlin onların boğazından bərk yapışaraq boğmağa çalışdığını söyləyiblər.**

Bir qrup xəstələr isə qorxu, təəccüb və rahatlıq dolu bir hiss yaşadığını deyib. Qeyd edək ki, edilən araşdırmalardan sonra Amerikanın tanınmış alimlərindən Sam Parnia insan öldükdən sonra şüurunun itmədiyini söyləyib.



## Maşında 6 gün susuz və yeməksiz qalıb

**Belçikanın Lyej bölgəsində bir qadın 6 gün boyunca bağlı maşında susuz və yeməksiz qalıb. Bu barədə lenta.ru saytı xəbər verib. 45 yaşlı Korin Bastid qəzaya düşüb, maşını meşəyə yuvarlanıb və bu zaman ciddi xəsarət alıb. Aldığı xəsarətə görə maşından düşə və telefona əlini uzada bilməyən qadın yardım da çağıra bilməyib. Qadın hər dəfə hərəkət etmək istəyəndə ağrıdan huşunu itirirdi.**

Susuzluqdan ölməmək üçün qadın yağış suyu içib. Belə ki, maşının pəncərəsi açıq olduğu üçün o, başını bir qədər bayıra çıxarıb, yağış yağanda onun suyundan içirdi: "Mən özümü ac hiss etmirdim. Amma övladlarım üçün yaşamağa can atırdım. Mən istəmirdim ki, onlar intihar etdiyimi düşünsünlər".

Daha sonra belçikalı qadın maşını ayağı ilə açmağa müvəffəq olub. O, yanından keçən maşını saxlamaq üçün hündürdən qışqırıb. Korinin çağırışına səs verən qadın isə onu tanıyırdı. Korin bu tanışının da son günlər onu axtarmaqla məşğul olduğunu biləndə onun adını "qoruyucu mələk" qoydu. Hazırda qadın xəstəxanadadır və orada bir neçə həftə keçirəcək.

## Bunları bilirsinizmi?

* İnsan beynində 1 saniyədə 100 000 kimyəvi reaksiya baş verir.
* Uşaqlar diz qapaqsız doğulur, qapaqlar 2-6 yaşda yaranır.
* Həyatı boyu insanın hər barmağı 25 milyon dəfə əyilir.
* Bir ildə 21 milyon 557 min 600 saniyə var.
* İlk coğrafi atlas e.ə.150-ci ildə alim Ptolomey tərəfindən yaradılıb, 1477-ci ildə Boloniya şəhərində çap edilib.
* Tüdorun hakimiyyəti dövründə İngiltərədə sıx bağlanmış korset və biləkdə çoxlu qolbaqlar bakirəlik əlaməti hesab olunurdu.
* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.
* Ağciyərin üzəri 100 kvadrat metrdir. Onun üst qatının sahəsi tennis kortunun sahəsinə bərabərdir.
* Dünya əhalisinin qidasının 70%-dən çoxu 12 çeşiddə bitki və 5 növ heyvandan ibarətdir.
* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.
* İnsan beyni gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.
* Maksimal sayda krossvordu Adrian Bell hazırlayıb. 1930-cu ilin yanvarından 1980-ci ilə qədər o, "Tayms" qəzetinə 4520 krossvord yollayıb.
* İngiltərədə çap olunan ilk kitab Şahmata həsr olunub.
* Kitab oxuyarkən hər saniyədə 70 hüceyrə ölür.
* İnsanin gün ərzində orta gücü 100 vatt, ürəyinin gücü isə 10 vattdır.
* Açıq gözlə asqırmaq qeyri-mümkündür.
* İnsan ağzında 40 000 bakteriya var.
* İnsanların 70%-i çoxluğun fikrindən asılıdır. Yalnız 30% insan öz fikri ilə hərəkət edir.

## Oğrulardan biri ürəyini tutub, o biri mağazanı qarət edib

**Amerikanın Florida ştatındakı Leyk Uels şəhərində maraqlı oğurluq hadisəsi baş verib. 30 yaşlı Tarus Skot və 27 yaşlı Jenard Düpre maraqlı bir oğurluq edib. Belə ki, onlardan biri supermarketdə guya ki, ürəyinin tutması ilə bağlı rola girərək, yerə yıxılıb. Bundan öncə isə onlar marketin uşaq oyuncaqları hissəsindən Barbi evi, avtovobili, eləcə də planşet oğurlayıblar. Girişə çatanda Tarus özünü yerə atıb, əli ilə ürəyini tutub. Mağazadakı bir neçə müştəri ona yardım etmək istəyib. Başın qarışmasından istifadə edən digər dostu isə oğurladıqları ilə birgə mağazadan çıxıb. Bundan bir neçə dəqiqə sonra Düpre sanki əhvalı birdən yaxşılaşmış kimi yerdən ayağa durub və mağazanı tərk edib. Hər iki oğru marketin parkinqindən birgə çıxıblar. Baş vermiş hadisəni videomüşahidə aparatı qeydə alıb və oğruların kimliyini müəyyənləşdirib. Hər iki oğru həbs edilib. Onların oğurladığı əşyaların ümumi məbləği isə 369 dollar olub. Hüquq-mühafizə orqanlarından bildiriblər ki, bu, cütlüyün ilk belə oğurluq hadisəsi deyil. Onlar bir neçə dəfə bənzər oğurluq hekayələrinə görə polis orqanlarında olublar. Statistikaya görə, sözügedən cütlük düz 32 dəfə həbs edilib. Skott qısa müddət bundan öncə həbsdən azad edilib. Onun son həbs müddəti 10 il olub.**




Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.